20 sentyabr 2019 №67 (1652) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Dahi bəstəkarın əbədi musiqi işığında

## 11-ci dəfə keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalına 10 ölkədən tanınmış ifaçı və kollektivlər gəlib

Paytaxtımız növbəti beynəlxalq musiqi bayramına ev sahibliyi edir. Sentyabrın 18-də XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi keçirildi.



Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə gerçəkləşən festival 11-ci dəfədir müxtəlif ölkələrdən dirijor, solist, ifaçı və kollektivləri dahi bəstəkarın musiqi işığında Azərbaycan sənətçiləri ilə bir araya gətirir. Ənənəvi olaraq böyük bəstəkarın doğum günündə başlanan festival bu dəfə həm iştirakçı sayına, həm də müddətinə və tədbirlər proqramının zənginliyinə görə əvvəlki illərdən fərqlənir.

Festivalın M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında gerçəkləşən açılış mərasimində Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət naziri Əbülfəs Qarayev, digər rəsmilər, dövlət qurumlarının və ictimai təşkilatların nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak edirdi.

Mərasim yenə də öz təmtərağı ilə musiqisevərlərə əsl bayram əhvalı yaşatdı. Gecə Xalq artisti Rauf Abdullayevin rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifası ilə başlandı. Birinci hissədə səslənən Üzeyir Hacıbəylinin "Koroğlu" operasından məşhur uvertüra bu dəfə də öz möhtəşəmliyini, müəllifin sənətinin ölməzliyini, hər zaman zirvələrdə olduğunu sübut etdi.

Böyük alqışlarla qarşılanan ifadan sonra görkəmli bəstəkar, unudulmaz pedaqoq, SSRİ Xalq artisti, akademik Arif Məlikovun 6 saylı simfoniyası səsləndi. Əsər müəllifin əziz xatirəsinə həsr olunmuşdu.

*davamı səh. 2-də*

# Eyni gündə doğulan iki dahi şəxsiyyətə dərin ehtiramla

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 18 sentyabr – Milli Musiqi Günü ilə əlaqədar "İnstagram" səhifəsində paylaşım edib.

Birinci vitse-prezidentin paylaşımında deyilir: "Bu gün Milli Musiqi Günüdür. 1885-ci il sentyabrın 18-də Azərbaycan bəstəkarlıq məktəbinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyli anadan olmuşdur. Onunla eyni ildə və eyni gündə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar Müslüm Maqomayev dünyaya gəlmişdir. Hər iki dahi şəxsiyyətimizin xatirəsini dərin ehtiramla yad edirik".

# "Jazz Fans" İctimai Birliyinin və jazz.az saytının təqdimatı

Milli Musiqi Günündə Bakıda "Jazz Fans" ("Cazın dostları") İctimai Birliyi və jazz.az saytının yenilənmiş versiyasının təqdimatı olub.

Tədbirdə Mədəniyyət naziri Əbülfəs Qarayev, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli, Azərbaycan Milli Konservatoriyasının rektoru, professor Siyavuş Kərimi, incəsənət xadimləri və caz həvəskarları iştirak ediblər.

"Jazz Fans" İB-nin həmtəsisçisi Nuri Əhmədov incəsənətin bu növünün Azərbaycanda təşəkkül tapmasının tarixindən bəhs edib, həmçinin ölkəmizdə cazın banilərinin həyat və yaradıcılığı haqqında məlumat verib və hazırda bu sahədə mövcud olan problemlərə toxunub. N.Əhmədov bu musiqi janrının ölkəmizdə inkişafına və Azərbaycan cazının dünyada təbliğinə verdiyi böyük töhfəyə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürünü bildirib.

"Jazz Fans" İB-nin həmtəsisçisi Mədəniyyət naziri Əbülfəs Qarayevə ölkəmizdə caz janrının inkişafına göstərdiyi dəstəyə görə minnətdarlıq edib.

İnternet portalının baş redaktoru, musiqişünas Turan Məmmədəliyeva qeyd edib ki, ictimai təşkilat caz həvəskarlarını və fanatlarını, ifaçıları, nəzəriyyəçiləri və media nümayəndələrini birləşdirən bir platforma olmağı qarşısına məqsəd qoyub.

Qeyd edək ki, "Jazz Fans" İctimai Birliyi 2003-2015-ci illərdə fəaliyyət göstərmiş Bakı Caz Mərkəzinin işini davam etdirəcək.

# Qobustan qoruğunda "Avropa irs günləri"

Sentyabrın 19-da Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən qoruqlarda "Avropa irs günləri" layihəsinin ilk günü keçirilib. Layihə çərçivəsində qoruqlarda "açıq qapı" günü təşkil olunub.



Mərasimdə çıxış edən Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Vüqar İsayev tədbir haqqında geniş məlumat verib. Bildirib ki, Avropa Şurasının və Avropa İttifaqının birgə layihəsi olan "Avropa irs günləri" hər ilin sentyabr ayının sonlarında qeyd olunur. Rəsmi açılışlar, maarifləndirici kampaniyalar, "açıq qapı" günləri, folklor gecələri və etnoqrafik şənliklər formasında keçirilən tədbirlər Avropa sakinlərinin iştirak etdiyi ən irimiqyaslı mədəniyyət hadisəsi hesab olunur. Layihənin əsas məqsədi yerli və əcnəbi ziyarətçilərin mədəni irs obyektlərinə sərbəst girişini təmin etmək, tarix və mədəniyyət abidələrinin qorunması məsələlərinə geniş ictimaiyyətin diqqətini cəlb etmək və milli mədəni irsi təbliğ etməkdir.

*davamı səh. 2-də*



# Musiqi alətlərinin birlik və müxtəlifliyi

Sentyabrın 17-də Heydər Əliyev Mərkəzində "Musiqi alətləri: birlik və müxtəliflik" sərgisinin açılış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti, professor Siyavuş Kərimi Milli Musiqi Günü ərəfəsində açılan sərginin əhəmiyyətindən danışıb. Xalq artisti Azərbaycan milli musiqi alətlərini özününküləşdirmək, musiqi irsimizi mənimsəmək hallarının müşahidə edildiyi bir zamanda belə sərginin təşkilinin çox önəmli olduğunu bildirib: "Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək istiqamətində belə işləri daim görməliyik. Sərginin əhatəli şəkildə təşkili valehedicidir. Düşünürəm ki, bu sərgi daha da genişlənməlidir. Heydər Əliyev Mərkəzində Azərbaycan mədəniyyətinə, ümumiyyətlə, Şərq mədəniyyətinə aid musiqi alətlərinin sərgilənməsi çox maraqlı haldır və bunlar hamısı bizim böyük təbliğatımızdır".

Xalq artisti, tarzən, professor Ramiz Quliyev də möhtəşəm sərginin təşkilini mədəni həyatımızda mühüm hadisə kimi dəyərləndirib: "Sərgidə yer alan Azərbaycan milli musiqi alətləri xalqımızın sərvətidir. Sərgi Azərbaycan xalqının, musiqi mədəniyyətinin gözəl səsini dünyaya çatdıracaq. Eyni zamanda çox sevinirik ki, dövlət Azərbaycan xalqının musiqi mədəniyyətini qoruyur. Sərgi dövlətimizin Azərbaycan muğamına, musiqisinə diqqət və qayığısına bariz nümunədir. Ruhu oxşayan böyük bir iş görülüb".

*davamı səh. 4-də*

# Milli kino yeni inkişaf mərhələsində

Bu il 121 yaşını qeyd edən Azərbaycan kinosu mədəniyyət salnaməmizdə özünəməxsus yerə sahibdir. Həm sovet dövründə müxtəlif vaxtlarda, həm də müstəqilliyin ilk illərində bu sahə çətin sınaqlardan keçib.

Bununla yanaşı, milli kino sənətinin tarixində dəyərli ekran nümunələrinin ərsəyə gəldiyi, istedadlı, təcrübəli kino xadimlərinin yetişdiyi mühüm inkişaf mərhələləri olub. Mədəniyyətimizin böyük hamisi, ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə kino salnaməmiz bir çox maraqlı, məzmunlu örnəklərlə zənginləşib. Ulu öndərin müstəqil Azərbaycana rəhbərliyə qayıdışından sonra, mədəniyyətimizin digər sahələri kimi, kino sənayesində də canlanma yarandı.

Dövlət tərəfindən kinonun inkişafına dəstək göstərilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mədəniyyət siyasətinin də mühüm istiqamətlərindən biridir. Bu baxımdan son on ili milli kino sənətimizin tarixində əlamətdar mərhələ kimi səciyyələndirmək olar. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" bu sahənin tərəqqisində mühüm rol oynayıb. Dövlət proqramında nəzərdə tutulmuş məsələlərin həlli istiqamətində Mədəniyyət Nazirliyi tərəfindən diqqətəlayiq layihələr həyata keçirilib. O cümlədən ötən illərdə ekran əsərlərimizin beynəlxalq festivallarda daha geniş miqyasda və uğurlu iştirakı bu dövrün mühüm nəticələrindən biridir.

*davamı səh. 5-də*

# Yurdda musiqi bayramı

Dahi bəstəkar, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəylinin anadan olmasının 134-cü ildönümü və 18 sentyabr – Milli Musiqi Günü Ağcabədidə təntənə ilə qeyd olunub.

Mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri Üzeyir Hacıbəylinin Qarabağ Muğam Mərkəzinin həyətindəki büstünü ziyarət edib, önünə çiçək dəstələri düzüblər.

Sonra Qarabağ Muğam Mərkəzində dahi bəstəkarın əsərlərindən ibarət konsert proqramı təqdim olunub.

Ağcabədi şəhər Uşaq incəsənət məktəbində də tədbir keçirilib. Çıxış edənlər Üzeyir Hacıbəylinin milli musiqi mədəniyyətinin inkişafında əvəzsiz xidmətlərindən, dünya musiqi xəzinəsinə verdiyi töhfələrdən danışıblar. Bəstəkarın "Arşın mal alan" operettasından və "O olmasın, bu olsun" musiqili komediyasından səhnələr göstərilib, mahnı və romanslar ifa olunub.

Ağcabədi Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində "Üzeyir Hacıbəyli günləri" sentyabrın sonunadək davam edəcək.

*davamı səh. 3-də*

# Nəsiminin 650 illiyi şərəfinə layihə Berlində maraqla qarşılanıb

Xəbər verildiyi kimi, sentyabrın 11-də Almaniyanın paytaxtı Berlində Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illiyi ilə bağlı bəstəkarlarımızın əsərlərindən ibarət "In Memoriam Nasimi – 650 Jahre Imadeddin Nasimi" adlı konsert təqdim olunub.

Sentyabrın 19-da Bəstəkarlar İttifaqında bu layihəyə həsr olunmuş mətbuat konfransı keçirildi. Tədbirdə Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, "İnci" qanun qrupunun rəhbəri, Əməkdar artist Təranə Əliyeva, Akademik Opera və Balet Teatrının solisti, Əməkdar artist Afaq Abbasova, Milli Konservatoriyanın professoru, Əməkdar artist İlham Nəcəfov və konsertdə çıxış etmiş ifaçılar iştirak edirdi.

*davamı səh. 3-də*

Üzeyir Hacıbəyli yaradıcılığının xalçalarda tərənnümü



səh. 3

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Azərbaycan Milli Konservatoriyası ilə əməkdaşlıq edəcək

səh. 4



Mahnı və rəqs ansamblımız Xivədən mükafatla qayıdıb

səh. 8

№67 (1652)
20 sentyabr 2019
www.medeniyyet.az

# Dahi bəstəkarın əbədi musiqi işığında

## 11-ci dəfə keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalına 10 ölkədən tanınmış ifaçı və kollektivlər gəlib

*əvvəli səh. 1-də*

**Üzeyir bəyin bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi yad edildi**

Festival günlərində Azərbaycanın musiqi tarixində silinməz iz qoyan sənətkarların, Üzeyir bəyin əsasını qoyduğu milli bəstəkarlıq məktəbinin layiqli davamçısı olmuş musiqi xadimlərinin yad edilməsi ənənəyə çevrilib. Builki festivalın açılış konsertində Arif Məlikov yaradıcılığına müraciət olunması bu ənənənin davamı idi.

6 saylı simfoniya səsləndikcə millətə, dövlətə hər zaman xidmətdə olan mənalı sənətkar ömrünün səhifələri canlanırdı gözlər qarşısında. Arif Məlikovun çoxşaxəli fəaliyyəti Azərbaycanın mədəniyyət tarixinin möhtəşəm səhifələrindəndir. O, musiqimizin gələcəyinin qayğısına qalır, yaradıcılığı boyu yiyələndiyi dəyərli təcrübənin bir zərrəsini belə əsirgəmədən gələcək nəsillərə çatdırırdı. Öz dəyərli musiqiləri ilə Azərbaycan musiqi xəzinəsinə incilər qatan bəstəkarın dünyanın bir çox məşhur səhnələrində səsləndirilən əsərləri böyük rəğbət və hörmətlə qarşılanır. Sözsüz ki, Azərbaycan musiqisi dünyada Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Arif Məlikov və digər dəyərli sənətkarların əsərləri ilə təmsil olunur.





**Musiqiyə sevginin təcəssümü**

Konsertin ikinci hissəsində azərbaycanlı musiqiçilərlə yanaşı Rusiyanın tanınmış skripka ifaçısı, P.Çaykovski adına XVI beynəlxalq müsabiqənin qalibi Sergey Doqadin də səhnəyə çıxdı. Festivalın qonağı Yan Sibeliusun "Skripka və orkestr üçün konsert"ini məharətlə ifa edərək tamaşaçıların sevgi dolu alqışları ilə mükafatlandırıldı.

Qonaq musiqiçi qısa müsahibəsi zamanı bildirdi ki, ölkəmizdə olmağından çox məmnundur: "Azərbaycanda təşkil edilən çoxsaylı klassik musiqi festivalları burada musiqiyə olan dərin sevginin təcəssümüdür. Çox şadam ki, festivala dəvət almışam".

Bəli, festivalın açılış konserti onu göstərdi ki, Üzeyir bəy ənənələri bu gün də böyük sevgi ilə davam etdirilir. Böyük bəstəkarın şərəfinə təşkil olunan musiqi bayramı Azərbaycan mədəniyyətinin təbliğinə töhfələr verir.

**Festivalın zəngin proqramı var**

Qeyd etdiyimiz kimi, sentyabrın 30-dək davam edəcək XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının zəngin proqramı var. 13 gün ərzində ümumilikdə 40-dək tədbir nəzərdə tutulub. Müqayisə üçün deyək ki, ötən il festivalda tədbir sayı 30 idi.

Festivala Rusiya, Gürcüstan, ABŞ, Türkiyə, İtaliya, Özbəkistan, Belarus, Bolqarıstan və Ukraynadan tanınmış musiqiçilər – Sergey Roldugin, Xatia Buniatişvili, Alyona Bayeva, Miroslav Kultışev, Sergey Doqadin, Filipp Kopaçevski, Veliçka Yoçeva, Yevgeni Avramenko, Lorenzo Tazzieri, Dmitri Xoxlov, Aleksandr Hacıyev, Marqarita Aleksandroviç, Murat Səlim Tokac, Regina Rüstəmova, Cəbrayıl İdrisov, Giorgi Çelidze, Ümid İsrailov dəvət olunub. Eləcə də Türkiyədən Çukurova Dövlət Simfonik Orkestri (Adana), Çin Xalq Respublikasından "Silk Road" Filarmonik Orkestri festivalın qonağıdır. Azərbaycanın musiqi kollektivləri, dirijor və ifaçıları da musiqi bayramına öz töhfələrini verəcək. Rauf Abdullayev, Ülviyyə Hacıbəyova, Yeganə Axundova, Fəxrəddin Kərimov, Murad Adıgözəlzadə, Murad Hüseynov, Əyyub Quliyev, Mustafa Mehmandarov və başqalarının iştirakı ilə konsert proqramları təqdim olunacaq.

Konsert və tədbirlərin coğrafiyası paytaxtla məhdudlaşmayacaq. Sentyabrın 25-də Ağcabədi rayon Qarabağ Muğam Mərkəzində Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı (bədii rəhbər və baş dirijor Ağaverdi Paşayev) və solistlərin iştirakı ilə konsert təşkil ediləcək. Həmin gün Gəncə Dövlət Filarmoniyasında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı truppasının iştirakı və Sevil Hacıyevanın dirijorluğu ilə Üzeyir bəyin "O olmasın, bu olsun" ikipərdəli musiqili komediyası nümayiş olunacaq.

**LALƏ**

# Ölkəmiz MDB Mədəni Əməkdaşlıq Şurasının iclasında təmsil olunub

18-19 sentyabr tarixində Tacikistanın paytaxtı Düşənbədə MDB Ölkələri Mədəni Əməkdaşlıq Şurasının 34-cü iclası keçirilib.

İclasda Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Fikrət Babayev və nazirliyin Beynəlxalq təşkilatlarla əməkdaşlıq sektorunun məsləhətçisi Araz Bağırlı iştirak ediblər.

34-cü iclasa Belarus Respublikası sədrlik edir. İclası açan Belarus Mədəniyyət nazirinin birinci müavini Natalya Karçevskaya qonaqları salamlayaraq gündəlik haqqında məlumat verib.

Sonra ev sahibi ölkənin – Tacikistanın Mədəniyyət naziri Şəmsəddin Orumbekzadə iştirakçıları ölkəsinin hökuməti adından salamlayıb.

Gündəlik üzrə məsələlərin müzakirəsində Azərbaycan Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Fikrət Babayev, digər ölkələrin nümayəndə heyətlərinin başçıları çıxış ediblər.



İclasda 2021-2025-ci illər üçün MDB ölkələrinin mədəniyyət sahəsində əsas əməkdaşlıq tədbirlərinin layihələri nəzərdən keçirilib. Tarixi-mədəni irsin qorunması və istifadəsi, muzey işi, kitabxana sahəsi, teatr-konsert fəaliyyəti, təsviri sənət, kitab nəşri, informasiya fəaliyyəti, musiqi və kino sahəsində qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilib.

İclasda "Birliyin mədəniyyət paytaxtları" dövlətlərarası proqramının icrası ilə bağlı məsələyə də baxılıb. Belarus Mədəniyyət nazirinin birinci müavini N.Karçevskaya proqramın bu il Brestdə həyata keçirilməsi barədə məlumat verib. Qazaxıstan Mədəniyyət və İdman nazirinin müavini Nurkisa Daueşov gələn il "Birliyin mədəniyyət paytaxtı" olacaq Şımkənd şəhərində proqrama hazırlığın gedişi barədə məruzə edib.

Şura üzvləri həmçinin Böyük Vətən müharibəsində qələbənin 75 illiyinə həsr olunmuş tədbirlərdə iştirak, Qələbə muzeyində "Qələbə ərazisi" layihəsi ətrafında da müzakirələr aparıblar.

# Kiyevdə media forumu keçirilib

Ukrayna paytaxtında "Media həftəsi" adlı beynəlxalq forum keçirilib. 16-18 sentyabr tarixində gerçəkləşən "Kiyev media həftəsi"ndə Mədəniyyət Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Elnarə Quliyeva iştirak edib.

2011-ci ildən etibarən təşkil olunan forum media sahəsində marketinq sənayesinin formalaşdırılmasında iştirak edir. Forum çərçivəsində Avstriyanın ORF şirkətinin media üzrə səlahiyyətli nümayəndəsi Aleksandra Hopf, Bolqarıstanın CEETV kanalının vitse-prezidenti Stanislav Kimcev, BBC-nin (Böyük Britaniya) media formatı üzrə distributoru Kamila Budzilo ilə görüşlər keçirilib. Beynəlxalq media qurumları ilə birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Bakıda Rusiya filmləri həftəsi

Sentyabrın 23-də Nizami Kino Mərkəzində Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Rusiyanın "Kinofest" Prodüser Mərkəzi və "YARAT" Müasir İncəsənət Mərkəzinin birgə təşkilatçılığı ilə "Rusiya filmləri həftəsi"nin açılış mərasimi keçiriləcək.

Mərasimin rəsmi hissəsindən sonra rejissor Anar Abbasovun 2019-cu ildə çəkdiyi "Döyüş" ("Битва") bədii filmi tamaşaçılara təqdim ediləcək.

Sentyabrın 29-dək davam edəcək film həftəsi çərçivəsində Nizami Kino Mərkəzində rejissor Kim Drujininin "Tanklar", Mixail Rasxodnikovun "Əziz ata", Yelena Xazanovanın "Məşuqələr" və başqa bədii filmlər nümayiş olunacaq.

# "Xəlqilik, millilik, beynəlmiləllik"

Sentyabrın 18-də XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində Beynəlxalq Muğam Mərkəzində "Xəlqilik, millilik, beynəlmiləllik" adlı tədbir keçirildi. Mədəniyyət naziri Əbülfəs Qarayev tədbirdə iştirak edirdi.

Tədbirdə ilk olaraq sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızının "Akademik Üzeyir Hacıbəylinin elmi fəaliyyətindən səhifələr" adlı kitabı təqdim olundu.

Bildirildi ki, Beynəlxalq Muğam Mərkəzi tərəfindən "Təhsil" nəşriyyatında çap olunan kitabda dahi bəstəkarın Azərbaycan Elmlər Akademiyasında çalışdığı dövrdən bəhs edilir. Nəşr AMEA və Üzeyir bəyin ev-muzeyinin fondundan əldə edilən məlumatlar əsasında ərsəyə gətirilib. Akademiyanın İncəsənət İnstitutu (Memarlıq və İncəsənət İnstitutu) Üzeyir bəy tərəfindən yaradılıb, direktoru da bəstəkarın özü olub. Kitabda musiqi sahəsi ilə yanaşı, teatr, ədəbiyyat, dilçilik məsələləri də əksini tapıb.




Sonra Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Qədim musiqi alətləri ansamblının ifaları səsləndi.

Nazir Əbülfəs Qarayev Milli Musiqi Günü münasibətilə tədbir iştirakçılarını təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzuladı. Tədbir ədəbi-bədii gecə ilə davam etdi.

Konsertdən əvvəl Üzeyir Hacıbəylinin musiqi sənətimizə töhfələrindən bir daha söz açıldı. Vurğulandı ki, Azərbaycan, rus və dünya klassik incəsənətinin ənənələrini dərindən mənimsəyən bəstəkar doğma xalqının mədəniyyətini yüksəklərə qaldırmaq məqsədilə yorulmadan yazıb-yaradıb.

Diqqətə çatdırıldı ki, "Xəlqilik, millilik, beynəlmiləllik" adlı konsert proqramında Üzeyir bəyin məhz bu mövzularda ərsəyə gətirdiyi əsərlərdən nümunələr öz əksini tapıb.

Konsert proqramında əməkdar artistlər Səbuhi İbayev, Bəyimxanım Vəliyeva, Nərgiz Kərimova, Anar Şuşalı və xanəndələr Rəvanə Qurbanova, Səbinə Ərəblinin ifasında bəstəkarın şah əsərlərindən nümunələr səsləndirildi. Solistləri tarzən Rövşən Qurbanovun rəhbərliyi ilə "Buta" instrumental ansamblı müşayiət edirdi. Konsertdə "Koroğlu" operasından "Cəngi" rəqsi, "Arşın mal alan" operettasından Tellinin nəğməsi, "Sən o yanda, yar bu yanda", "Bənd oldum", Əsgərin ariyası və s. nümunələr alqışlarla qarşılandı.

Tədbirdə musiqi ictimaiyyətinin nümayəndələri ilə yanaşı, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları, məcburi köçkün soydaşlarımız da iştirak edirdi.

**L.AZƏRİ**

# "Qədim Avropaya səyahət"



Sentyabrın 19-da Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında "Qədim Avropaya səyahət" adlı konsert təşkil olundu.

XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində reallaşan konsertdə "D`accordo" barokko musiqi ansamblı çıxış etdi.

Ansamblın təsisçisi və bədii rəhbəri İlahə Sadıqzadə bildirdi ki, kollektiv 2016-cı ildə yaradılıb. Ötən müddət ərzində ansambl geniş repertuarı mənimsəməyə nail olub. Hazırda repertuara Qərbi Avropa barokko və renessans dövrü bəstəkarlarının 40-dan çox əsəri daxildir. "D`accordo" ansamblı Azərbaycan Dövlət Akademik Filarmoniyası tərəfindən təşkil edilən "Gənclərə dəstək" layihəsində iştirak edib. Eyni zamanda ölkənin müxtəlif festivallarında uğurlu çıxışları ilə yadda qalıb. 2018-ci ildə ansambl Sankt-Peterburq şəhərində keçirilən "Gümüş lira" kamera musiqisi festivalında çıxış edib.

Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalında artıq ikinci ildir iştirak etdiklərini söyləyən İlahə Sadıqzadə bildirdi ki, ansamblın heyətində gənc və peşəkar musiqiçilər yer alıb. Yaxın zamanlarda tamaşaçılar "D`accordo" musiqi ansamblının heyətində Azərbaycanın klassik musiqi alətlərini də görə biləcəklər.

Sonra konsert proqramı təqdim edildi. Ansamblın ifasında Bokkerini, Sammartini, Ramo, Teleman və başqa bəstəkarların əsərləri səsləndirildi.

**FARİZ**

# Rusiyalı violin ifaçısının ustad dərsi

Sentyabrın 19-da XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində Beynəlxalq Muğam Mərkəzində tanınmış rusiyalı violin ifaçısı Sergey Doqadinin ustad dərsi təşkil olunub.




P.Çaykovski adına XVI beynəlxalq müsabiqənin qalibi olan ifaçının ustad dərsində Bülbül adına Orta ixtisas musiqi məktəbi və paytaxtın musiqi məktəblərinin bir qrup şagirdi və onların müəllimləri iştirak edib.

Rusiyalı musiqiçi hər bir şagirdi ayrılıqda dinləyərək öz məsləhətlərini verib. Bildirib ki, saatlarla alət arxasında vaxt keçirməməyin ən asan yolu ağıl və ürəklə, düşünərək ifa etməkdir.

Şagird və müəllimlərin suallarını cavablandıran Sergey Doqadin texnika, musiqi duyumu, müasir ifaçılığın problemləri ilə bağlı fikirlərini bölüşüb. Ustad dərsi maraqla qarşılanıb.

# Qobustan qoruğunda "Avropa irs günləri"

*əvvəli səh. 1-də*

Qobustanın hər zaman yerli və əcnəbi ziyarətçiləri cəlb etdiyini deyən Vüqar İsayev vurğulayıb ki, qoruğa gələn turistlərin sayı ilbəil artmaqdadır: "Ziyarətçilərin sayını artırmaq üçün daim tədbirlər təşkil olunur, tanıtım-təbliğat layihələri həyata keçirilir. Belə tədbirlərdən biri bu il oktyabrın 9-da UNESCO-nun təsis etdiyi "Qayaüstü təsvirlər günü"ndə gerçəkləşəcək. Portuqaliyanın Foskua qoruğunda Qobustana dair sərgi təşkil olunacaq".

Tədbirdə iştirak edən Maltanın UNESCO üzrə Milli Komissiyasının sədri Raymond Bondin Azərbaycanın mədəni irs nümunələri haqqında dərin təəssürata malik olduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycanda UNESCO-nun Dünya irs siyahısına salınması vacib olan xeyli sayda abidə var.

Tədbirdə məşhur opera müğənnisi Plasido Dominqo tərəfindən başladılan və Avropa İttifaqının himninin (Bethovenin 9-cu simfoniyasından parça – red.) mədəni irs abidələrində ifa olunması məqsədini daşıyan hərəkata uyğun olaraq, bu möhtəşəm musiqi Beynəlxalq Muğam Mərkəzi ilə birlikdə "Buta" instrumental ansamblı tərəfindən orijinal və yeni versiyada səslənib.

Sonra Xalq rəssamı Arif Hüseynov uşaqlar üçün rəssamlıq üzrə ustad dərsləri keçib. İştirakçılara sertifikatlar təqdim edilib.

Xüsusi qayğıya ehtiyacı olan fiziki məhdudiyyətli yaradıcı uşaq və gənclərin əl işlərindən ibarət sərgi-satış təşkil olunub.

Tədbir çərçivəsində "Kadr arxasında Qobustan" adlı tur da keçirilib. Tur zamanı ziyarətçilər Qobustanın ekskursiya marşrutlarından kənarda – "kadr arxasında" qalan, "Axırıncı aşırım", "Yeddi oğul istərəm", "Dədə Qorqud", "Qanlı zəmi" və digər məşhur filmlərin çəkildiyi məkanlar və ərazidə yerləşən abidələrlə tanış ola bilərlər. Bu layihənin məqsədi filmlərin çəkildiyi məkanlara səfərlər təşkil etməklə həmin məkanları və ərazidə yerləşən abidələri ictimaiyyətə fərqli formada təqdim etməkdir.

Əlavə edək ki, "Avropa irs günləri" digər qoruqlarda da qeyd olunur.

# Üzeyir dühasına sonsuz ehtiram

## Milli Musiqi Günü silsilə tədbirlərlə qeyd olundu

Azərbaycan professional musiqi sənətinin banisi Üzeyir Hacıbəylinin (1885-1948) dünyaya gəldiyi 18 sentyabr tarixi ölkəmizdə ənənəvi olaraq Milli Musiqi Günü ("Üzeyir musiqi günü") kimi təntənə ilə qeyd edilir.



Mədəniyyət tariximizin bu əlamətdar gününün tədbirlər silsiləsi ənənəvi olaraq Fəxri xiyabanda dahi bəstəkarın məzarının ziyarət olunması ilə başlandı.

Mərasimdə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət naziri Əbülfəs Qarayev, nazirin birinci müavini Vaqif Əliyev, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak edirdilər.

Mədəniyyət naziri Əbülfəs Qarayev mərasim iştirakçılarını Milli Musiqi Günü münasibətilə təbrik edərək bildirdi ki, bu gün sadəcə sənətsevərlərin deyil, bütün Azərbaycan xalqının bayramıdır: "1995-ci ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alınıb.



Artıq neçə ildir xalqımız bu bayramı qeyd edir. Üzeyir bəy Azərbaycan professional musiqisinin banisi olmaqla bərabər, həm də yazıçı, mütəfəkkir və ictimai xadim kimi böyük şöhrət qazanıb".

Əbülfəs Qarayev onu da diqqətə çatdırdı ki, Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən, 2009-cu ildən etibarən Azərbaycanda Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı təşkil olunur: "Festivalın konsertlərində görkəmli musiqiçilər, müxtəlif ölkələrdən bədii kollektivlər, solistlər, dirijorlar iştirak edirlər. Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən 11-ci festival sentyabrın 30-dək davam edəcək. Festivalda 11 ölkədən tanınmış musiqiçilər iştirak edəcək".

Nazir dedi ki, hazırda bu festival haqqında Fransanın məşhur "Mezzo" kanalında məlumat verilir, Üzeyir bəyin davamçısı olan Fikrət Əmirovun əsərləri də mütəmadi şəkildə bu kanalda səslənir. Bu da dahi bəstəkarın qoyduğu gözəl ənənənin təntənəsidir.

Bu il görkəmli bəstəkar Soltan Hacıbəyovun 100 illik yubileyinin keçiriləcəyini qeyd edən Əbülfəs Qarayev vurğuladı ki, bu münasibətlə onun yaradıcılığına həsr olunmuş tədbirlər təşkil olunacaq.

Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli çıxışında Üzeyir Hacıbəylini Azərbaycan musiqisinin peyğəmbəri adlandırdı: "Üzeyir bəyin ölməz musiqiləri dünyanın müxtəlif yerlərində səsləndirilir.



Mən inanıram ki, biz bu günü Şuşada qeyd edəcəyik".

Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov böyük bəstəkara həsr edilmiş tədbirlərin, ənənəvi musiqi festivalının əhəmiyyətindən danışdı, bu layihələri ölkəmizin mədəni həyatında əlamətdar hadisə kimi qiymətləndirdi.

Mərasimdə Azərbaycan Dövlət Xor Kapellasının ifasında Üzeyir bəyin "Leyli və Məcnun" operasından "Şəbi-hicran" kompozisiyası səsləndirildi.

***

Mərasim iştirakçıları daha sonra ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini də ehtiramla anaraq məzarları üzərinə tər çiçək dəstələri düzdülər.

Həmçinin Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Rəşid Behbudov, Niyazi, Müslüm Maqomayev kimi görkəmli musiqi korifeylərinin məzarları ziyarət olundu.

***

Milli Musiqi Gününün tədbirlər silsiləsi Azərbaycan Milli Konservatoriyasında açıq havada təşkil olunan konsert proqramı ilə davam etdi.

Konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi çıxış edərək əlamətdar günün əhəmiyyətindən, Üzeyir bəyin yaradıcılığından, Azərbaycan musiqisinin inkişafında xidmətlərindən danışdı.

Musiqi bayramı münasibətilə təbriklərini çatdıran nazir Əbülfəs Qarayev XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının ölkəmizin dünyada tanınmasında önəmini vurğuladı. Bildirildi ki, Üzeyir Hacıbəyli musiqi irsimizin tədqiqi ilə yanaşı, milli kadrların yetişməsinə də xüsusi önəm verib.

Sonra təhsil ocağının Xalq çalğı alətləri orkestrinin ifasında "Qarabağ şikəstəsi" zərbi muğamı səsləndirildi.

***

Daha sonra mərasim iştirakçıları Azərbaycan Milli İncəsənət Muzeyinin həyətinə gələrək burada nümayiş olunan "Güllələnmiş heykəllər"i ziyarət etdilər.

Bir vaxtlar doğma şəhərləri Şuşada ucalan Üzeyir Hacıbəylinin, Bülbülün və Xurşudbanu Natəvanın büstləri işğaldan sonra Bakıda, bu məkanda qərar tutub. Abidələrin önünə tər güllər düzüldü, hər üç şəxsiyyətin xatirəsi ehtiramla anıldı.

Mədəniyyət naziri Əbülfəs Qarayev vurğuladı ki, gün gələcək "Güllələnmiş heykəllər" yenə öz doğma məkanlarında, yenidən musiqi, mədəniyyət beşiyimiz olan Şuşada ucaldılacaq. Bu festivallar da Şuşada təşkil olunacaq.

**F.HÜSEYNOV**

# Fəvvarələr meydanında konsert

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının kollektivi Milli Musiqi Günü münasibətilə Fəvvarələr meydanında konsert proqramı ilə çıxış edib.



Mədəniyyət Nazirliyinin dəstəyi və Səbail Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən konsertdə teatrın balet, xor truppaları, orkestr və aktyor heyəti şəhər sakinlərinin zövqünü oxşayan musiqi nömrələri təqdim edib.

Əməkdar incəsənət xadimi Fəxrəddin Atayevin dirijorluğu ilə keçən konsertdə Akademik Musiqili Teatrın repertuarında olan əsərlərdən parçalar, həmçinin Üzeyir Hacıbəylinin ölməz əsərləri, eləcə də dünya klassiklərinin, müasir bəstəkarların musiqiləri səsləndirilib.

# Üzeyir Hacıbəyli yaradıcılığının xalçalarda tərənnümü

Azərbaycan Milli Xalça Muzeyində "Üzeyir Hacıbəyli yaradıcılığının xalçalarımızda tərənnümü" adlı tədbir keçirilib.



Böyük musiqiçiyə həsr olunmuş festival çərçivəsində gerçəkləşən tədbirdə Əməkdar incəsənət xadimi, bəstəkar, professor Elnarə Dadaşova Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı haqqında məruzə edib.

Əməkdar rəssam Tariyel Bəşirov Xalq rəssamı Tahir Salahovun müəllifi olduğu rəngkarlıq əsəri əsasında onun texniki layihəsi və rəhbərliyi ilə toxunan "Üzeyir Hacıbəyli" xalçası barədə danışıb.

Tədbirin bədii hissəsində Milli Xalça Muzeyinin "Uşaq muzeyi" şöbəsinin dərnək üzvləri və Xalq artisti Fidan Hacıyevanın vokal məktəbinin tələbələri çıxış ediblər. Dərnək üzvlərinin hazırladıqları kuklalardan ibarət səhnəcikdə vokal məktəbinin tələbələri Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettasından parçanı səsləndiriblər.

Sonda uşaqlara "Libraff" mağazalar şəbəkəsinin hədiyyələri təqdim olunub.

Tədbirdən sonra uşaqlar dekorativ-tətbiqi sənət üzrə ustad dərslərinə qatılıblar.

# Yurdda musiqi bayramı

*əvvəli səh. 1-də*



Bərdə Regional Mədəniyyət İdarəsi Bərdə şəhər 1 nömrəli Uşaq incəsənət məktəbində Milli Musiqi Günü münasibətilə konsert proqramı təşkil edib.

Çıxış edənlər dahi bəstəkarın zəngin həyat və yaradıcılığından bəhs ediblər.

Tədbir məktəb kollektivi tərəfindən hazırlanmış konsert proqramı ilə davam edib. Təqdim olunan rəngarəng musiqi nümunələri maraqla qarşılanıb.

***

Milli Musiqi Günü münasibətilə daha bir tədbir Beyləqan rayon Mədəniyyət Mərkəzində keçirilib.

"Üzeyirin musiqi dünyası" adlı ədəbi-bədii tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Yeganə Məmmədova çıxış edib. Uşaq musiqi məktəbinin "Aranqala" instrumental ansamblının, "Odlar yurdu" uşaq xor kollektivinin və Uşaq yaradıcılıq mərkəzinin rəqs kollektivinin iştirakı ilə konsert proqramı təqdim edilib.

***

Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Milli Musiqi Günü münasibətilə tədbirlər keçirilib.

Sumqayıt şəhər Q.Qarayev adına Uşaq musiqi məktəbində keçirilən tədbirdə Üzeyir Hacıbəylinin yaradıcılığı haqqında məlumat verilib. Məktəbin şagird və müəllim kollektivinin ifasında dahi bəstəkarın əsərləri dinlənilib. Konsertdə həmçinin, görkəmli bəstəkar Soltan Hacıbəyovun əsərləri də ifa edilib.



Sumqayıt şəhər Bülbül adına Uşaq incəsənət məktəbində keçirilən tədbirdə məktəbin tar, qarmon, klarnet, skripka şöbələrinin şagirdlərinin ifasında dahi bəstəkarın əsərləri dinlənilib. "Ümid" rəqs kollektivinin ifasında milli rəqs nömrələri təqdim edilib.

F.Əmirov adına Uşaq musiqi məktəbində xalq çalğı alətləri orkestrinin ifasında bəstəkarın "Koroğlu" operasından uvertüra, "Arşın mal alan" operettasından müqəddimə, "Sənsiz" romansı, "Qaragöz" mahnısı və s. əsərləri ifa olunub.

# Bakı Musiqi Akademiyasında bayram mərasimi

Sentyabrın 18-də Milli Musiqi Gününün əsas təntənəli tədbiri Bakı Musiqi Akademiyasının qarşısında – Üzeyir bəyin heykəli önündə keçirildi.

Mərasimdə çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev bildirdi ki, hər il olduğu kimi, bu il də dahi bəstəkarın doğum günü ölkəmizdə geniş şəkildə qeyd olunur: "Biz fəxr edirik ki, Azərbaycan musiqisi böyük beynəlxalq festivallarda təmsil olunur, yüksək səviyyədə qarşılanır. Mən inanıram ki, Azərbaycan xalqı yenə də dünyaya böyük sənətkarlar bəxş edəcək".



Əbülfəs Qarayev Üzeyir Hacıbəylinin adı ilə bağlı olan ənənəvi musiqi festivalının bütün musiqisevərlərə gözəl bir hədiyyə olacağını vurğuladı: "Festival çərçivəsində bir sıra mədəniyyət müəssisələrində silsilə tədbirlər keçiriləcək, eyni zamanda dünyanın müxtəlif ölkələrindən gələn musiqiçilər dahi bəstəkarın yaratdığı zəngin musiqi irsi ilə daha yaxından tanış olacaqlar".

Əbülfəs Qarayev bir daha Üzeyir bəyin adı ilə bağlı olan əlamətdar gün münasibətilə musiqi ictimaiyyətini təbrik etdi, hər kəsə yeni yaradıcılıq uğurları arzuladı.

Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli 2021-ci ildə təhsil ocağının 100 illiyinin qeyd ediləcəyini dedi: "Azərbaycan peşəkar musiqisi, bu ocaq Üzeyir bəyin adı ilə bağlıdır. Bunu unutmamalıyıq. Mən gənclərə müraciət edirəm. Mədəniyyətimizi təbliğ etməkdə fəallıq göstərsinlər, internetdə bizim mədəniyyətimizi yaysınlar".



Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi əlamətdar gün barədə danışaraq Üzeyir Hacıbəylinin Azərbaycan musiqisinə, mədəniyyətinə verdiyi töhfələri qeyd etdilər.

Tədbirdə Müdafiə Nazirliyinin Nümunəvi hərbi orkestrinin və Azərbaycan Dövlət Xor Kapellasının ifasında musiqi nümunələri təqdim olundu.

**FARİZ**

# Nəsiminin 650 illiyi şərəfinə layihə Berlində maraqla qarşılanıb

*əvvəli səh. 1-də*

Tədbiri giriş sözü ilə açan Firəngiz Əlizadə bildirdi ki, Bəstəkarlar İttifaqı ilk dəfə özünün təşəbbüsü ilə Almaniyada üç gün konsert verdi. Birinci gün balet truppasının iştirakı ilə "Nəsimiyə ithaf" əsəri təqdim olundu: "Bu səhnə əsərinin təqdimatında xoreoqraf Nailə Məmmədzadənin böyük əməyi var. Anar Mikayılov da Nəsiminin obrazını çox gözəl canlandırdı".




Firəngiz Əlizadə konsertin birinci günündə bəstəkar Aliyə Məmmədovanın "Mərhəba" əsərinin və Tahir İbişovun "İşıqdan qopmuşlar" simli kvartet və vokal ifaçısı üçün musiqili kompozisiyasının səsləndirildiyini də vurğuladı.

Konsertin ikinci günündə daha çox musiqi parçaları təqdim olunub. Firəngiz Əlizadənin simli kvartet üçün "Muğamsayağı" əsəri və Səid Qəninin "İstəməz" pyesi, eləcə də Mütəllim Dəmirovun ifasında bəstəkar Firudin Allahverdinin "Hardadır yaradan" musiqili kompozisiyası səsləndirilib.

F.Əlizadə üçüncü konsertin "Teatron" salonunda keçirildiyini bildirdi: "Bunlarhamısı böyük uğurdur. Bildiyiniz kimi, "Nəsimi ili" çərçivəsində Azərbaycanda bir sıra tədbirlər keçirilib. Almaniyada keçirilən konsert isə "Nəsimi ili"nə böyük töhfə oldu. İnanırıq ki, Almaniyada da Nəsimini sevdirə bildik".

Xalq artisti alman oxuculara Bəstəkarlar İttifaqının hazırladığı broşürlərin təqdim edildiyini də vurğuladı: "Bu broşürlərdə Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov kimi dahi bəstəkarlarımız, Azərbaycanda keçirilən musiqi festivalları haqqında məlumatlar əks olunub".

Əməkdar artist İlham Nəcəfov isə bütün musiqiçilərin konsertdə çox yüksək səviyyədə iştirak etdiklərini bildirdi: "Xalq musiqi alətlərimiz də alman dinləyicilərinə çox xoş təsir bağışladı".

Bəstəkar Aliyə Məmmədova konsertdə ifa edilən əsərlərin üçünün yeni olduğunu söylədi: "Onların məşqi də konsertdən bir neçə ay əvvəl olmuşdu. Musiqiçilərimiz böyük uğurla çıxış etdilər".

Qeyd edək ki, Berlində keçirilmiş konsertdə bəstəkarlar Firəngiz Əlizadə, Cəlal Abbasov, Aliyə Məmmədova, Səid Qəni, Tahir İbişov və Firudin Allahverdinin əsərləri ifa olunub. Konsertdə xanəndələr – Qədim musiqi alətləri ansamblının solisti, Xalq artisti Teyyub Aslanov, Opera və Balet Teatrının solisti Mütəllim Dəmirov, soprano Afaq Abbasova çıxış ediblər. Nəsimi obrazını Opera və Balet Teatrının balet truppasının aparıcı solisti Anar Mikayılov canlandırıb.

**Nurəddin MƏMMƏDLİ**

## “Azərbaycanfilm” kinostudiyasına yeni direktor təyin edilib

C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının direktoru və Mədəniyyət Nazirliyi Kinematoqrafiya şöbəsinin sektor müdiri vəzifələrinə yeni təyinatlar olub.

Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayevin müvafiq əmrləri ilə Cəmil Elşad oğlu Quliyev C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının direktoru vəzifəsinə, Müşfiq Mürşüd oğlu Hətəmov Mədəniyyət Nazirliyinin Kinematoqrafiya şöbəsində sektor müdiri vəzifəsinə təyin olunublar.

Əməkdar incəsənət xadimi, kinorejissor, ssenarist Cəmil Elşad oğlu Quliyev Azərbaycan Dövlət Film Fondunun direktoru, Azərbaycan Televiziyası “Mədəniyyət” kanalının direktoru, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru vəzifələrində çalışıb. Bu təyinatadək (2018-ci ildən) Mədəniyyət Nazirliyi Kinematoqrafiya şöbəsinin Filmlərin qeydə alınması, təbliği və yayımı sektorunun müdiri vəzifəsində işləyirdi. Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının icraçı katibi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professorudur.

Əməkdar incəsənət xadimi, ssenarist, kinoprodüser Müşfiq Mürşüd oğlu Hətəmov Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyoru fakültəsini bitirib. Bakı Mədəni-Maarif Texnikumunda dərs deyib. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Kinematoqrafiya şöbəsində inspektor, sektor müdiri, Kinematoqrafiya şöbəsinin müdir müavini vəzifələrində çalışıb. Bu təyinatadək (2011-ci ildən) C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının direktoru işləyirdi.

## “Transsibir” festivalında Qara Qarayevin musiqisi səslənəcək

Dekabrın 12-dən 14-dək Fransanın Lill şəhərində keçiriləcək 6-cı “Transsibir” incəsənət festivalının (Trans-Siberian Art Festival) açılış mərasimində böyük Azərbaycan bəstəkarı Qara Qarayevin “Yeddi gözəl” baletindən “Vals” səsləndiriləcək.



Bu haqda festivalla bağlı Parisdə keçirilən mətbuat konfransında məlumat verilib. Mətbuat konfransında festivalın direktorları – tanınmış skripkaçı Vadim Repin və dirijor Jan Klod Kasadesus iştirak ediblər.

Yevgeni Svetlanov adına Beynəlxalq dirijorlar müsabiqəsinin təsisçisi Marina Brouer Azərbaycanın Fransadakı səfiriyi və Heydər Əliyev Fondu ilə əməkdaşlığa toxunub, Qara Qarayevin bənzərsiz yaradıcılığından danışıb. Bildirib ki, “Transsibir” festivalının açılışında Q.Qarayevin musiqisinin səsləndirilməsi də səfirliklə əməkdaşlığın bəhrəsidir. O, Heydər Əliyev Fondunun azərbaycanlı musiqiçiləri təşviq etməsindən də söz açıb, Yevgeni Svetlanov adına IV Beynəlxalq dirijorlar müsabiqəsinə Fond tərəfindən namizədliyi irəli sürülən Fuad İbrahimovun uğurunu xatırladıb.

Novosibirskdən olan tanınmış skripkaçı Vadim Repin tərəfindən təsis edilmiş “Transsibir” festivalı indiyədək Yaponiya, ABŞ və Cənubi Koreyada keçirilib. Festival Avropada ilk dəfə Fransanın Lill şəhərində gerçəkləşəcək. Festivalın məqsədi gənc musiqiçiləri təşviq etməkdir.

Xatırladaq ki, Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin birgə dəstəyi ilə Qara Qarayevin anadan olmasının 100 illiyi münasibətilə Fransada film çəkilib. Filmdə Xalq artisti, beynəlxalq müsabiqələr laureatı, pianoçu Murad Hüseynov nüfuzlu “Reine Elizabeth Concours” müsabiqəsinin ən gənc qalibi, skripkaçı Vadim Repin ilə birlikdə bəstəkarın sonatasını və 24 prelüdünü səsləndirib. Film Fransanın bir çox kanallarında dəfələrlə nümayiş olunub və klassik musiqisevərlər tərəfindən rəğbətlə qarşılanıb. “Mezzo” klassik musiqi kanalında film 20 dəfədən çox yayımlanıb.

## İngilis dili xüsusi proqram üzrə tədris olunacaq

2019-2020-ci tədris ili ərzində ABŞ Dövlət Departamentinin dəstəyi ilə ölkəmizin müxtəlif ali təhsil müəssisələrində “English Language Teaching Assistant” proqramı çərçivəsində ingilis dili fənninin tədrisi təşkil olunacaq.

Xüsusi proqram üzrə tədris Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) də həyata keçiriləcək. ATMU-dan bildirilib ki, xüsusi proqram üzrə ingilis dili xanım Alangoya Tezel tərəfindən tədris ediləcək.

## Azərbaycan dialektologiyasının banisi

Sentyabrın 18-də AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda akademik Məmmədağa Şirəliyevin 110 illik yubileyi ilə bağlı “Azərbaycan dialektologiyasının banisi” mövzusunda dəyirmi masa keçirilib.

İnstitutun direktoru, akademik Möhsün Nağısoylu görkəmli alimin yubileyi ilə bağlı ölkə başçısının sərəncamını xatırladaraq bildirib ki, M.Şirəliyev dilçilikdə daha çox görkəmli dialektoloq kimi tanınıb, bu sahə ona dünya şöhrəti qazandırıb. Onun rəhbərliyi altında 40-dan çox elmlər namizədi, onlarla elmlər doktoru hazırlanıb. Elmi irsi dilçiliyimiz üçün dəyərli olan M.Şirəliyev Azərbaycan filoloji elmində dilçilik coğrafiyasının banisidir.

Tətbiqi dilçilik şöbəsinin müdiri, professor İsmayıl Məmmədli çıxışında diqqətə çatdırıb ki, M.Şirəliyev “Azərbaycan dialektologiyasının əsasları” monoqrafiyasına görə 1972-ci ildə Dövlət mükafatına layiq görülüb. Bu tədqiqat əsəri nəinki Azərbaycanda, eləcə də digər türk respublikalarında dialektoloji araşdırmalar üçün bir örnək kimi dəyərlidir.

Elmi işlər üzrə direktor müavini, dosent Baba Məhərrəmli, professorlar Qara Məşədiyev, Kamil Bəşirov, İsmayıl Kazımov və digər çıxış edənlər Azərbaycan dialektologiyasının əsaslarının yaradılmasında və türkoloji dilçiliyin inkişafında M.Şirəliyevin müstəsna rolunu qeyd ediblər.

# Musiqi alətlərinin birlik və müxtəlifliyi

### Heydər Əliyev Mərkəzində dünya xalqlarına məxsus musiqi alətlərinin sərgisi açılıb

əvvəli səh. 1-də

Ulu öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə göstərdiyi diqqət və qayğının Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini, Azərbaycan xalqının tar, kamança, saz sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük zəhmətini qeyd edən ustad tarzən sərginin təşkilinə görə sənət dostları adından Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib.




Xalq artisti, Azərbaycan Milli Konservatoriyanın professoru, xanəndə Mənsum İbrahimov diqqətə çatdırıb ki, Heydər Əliyev Fondu yaranan gündən muğam sənətimizin ikinci inkişaf dövrü başlanıb. Muğam müsabiqələri nəticəsində onlarla gənc ifaçı bu sənətə gəlib. “Heç bir dövrdə bu qədər gənc ifaçı bizim sənətimizə gəlməyib. Əlbəttə, bu, dövlətimizin, xüsusi olaraq Birinci vitse-prezident Mehriban Əliyevanın sənətimizə olan diqqəti və qayğısı sayəsindədir. Bu sərgi də həmin qayğının nümunəsidir. Azərbaycan musiqisinin, musiqi alətlərinin təbliği baxımından unikal bir sərgidir”.

***

Daha sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Ekspozisiyada Heydər Əliyev Fondunun müxtəlif mənbələrdən topladığı unikal kolleksiya – XVIII-XX əsrlərə aid 200-dək musiqi aləti nümayiş olunur. Bunlar 31 ölkəyə - Azərbaycan, Albaniya, Bolqarıstan, Çin, Dağıstan (Rusiya Federasiyası), Əfqanıstan, Əlcəzair, Gürcüstan, Hindistan, İndoneziya, İraq, İran, Kipr, Qazaxıstan, Qırğızıstan, Liviya, Macarıstan, Şimali Makedoniya, Mərakeş, Misir, Monqolustan, Özbəkistan, Pakistan, Rumıniya, Serbiya, Suriya, Tacikistan, Türkiyə, Türkmənistan, Yəmən və Yunanıstana aid musiqi alətləridir.

Sərgidə Azərbaycan musiqi mədəniyyəti və tarixinə də geniş yer verilib. Ekspozisiyada 50-dək milli musiqi aləti təqdim edilir.

Sərginin eksponatları sırasında Nizami Gəncəvinin “Xəmsə”sindən səhnələr həkk olunmuş, qızıl, brilyant və sədəflərlə işlənmiş kamança, Şəkinin XVIII əsrə aid olan cürə nağarası yer alıb.

Ekspozisiyada tanınmış incəsənət xadimlərinin musiqi alətləri var. Xalq artistləri Xan Şuşinski, Rübabə Muradova, Əbülfət Əliyev, Ağaxan Abdullayevə məxsus qavallar, Həbib Bayramov, Möhlət Müslümov, Ramiz Quliyev və Ceyran Haşımovaya aid tarlar, Aftandil İsrafilovun qarmonu, Əməkdar incəsənət xadimi aşıq Ədalət Nəsibovun sazı, tanınmış balaban ifaçısı Nizan Fətəliyevə aid balaban, Əməkdar artist Ədalət Vəzirovun kamançası sərgidə yer alıb. Xalq artisti Natiq Şirinovun eramızdan əvvələ aid küpə zərb aləti əsasında 2006-cı ildə hazırladığı alət də ekspozisiyada təqdim edilir. Sərginin NASA bölümündə 1977-ci ildə “Voyacer 1” kosmik gəmisində dünya xalqlarına məxsus 27 melodiya ilə birgə kosmosa göndərilmiş Azərbaycan musiqisini də dinləmək mümkündür.





Muğam otağında tanınmış xanəndələrin ifalarından ibarət videoçarxlar, ekspozisiyadakı monitorlarda UNESCO-nun siyahısına daxil edilmiş Azərbaycan muğamı, aşıq sənəti, tar və kamança ifaçılığına aid musiqi nümunələri təqdim edilir.

Sərgidə hər bir musiqi alətini seyr etməklə yanaşı, onu dinləmək və ən əsası, həmin alətdə ifa xüsusiyyətləri ilə tanış olmaq mümkündür. Bu məqsədlə ekspozisiyada video və audio yazıların fərdi qaydada dinlənilməsi üçün ekran və avadanlıqlar quraşdırılıb.

***

Sərgini izləyən sənət adamları təəssüratlarını jurnalistlərlə bölüşüblər. Xalq artisti Alim Qasımov deyib: “Sərgi çox yüksək səviyyədə təşkil olunub. Heydər Əliyev Mərkəzinə xarici qonaqlar gəlir. Onlar bizim sənətə, mədəniyyətə, eyni zamanda başqa xalqların mədəniyyətinə yüksək münasibətimizin bir daha şahidi olacaqlar. Həmçinin sərgi xalq musiqimizin təbliği baxımından əhəmiyyətlidir”.

“Natiq” ritm qrupunun rəhbəri, Xalq artisti Natiq Şirinov sərginin təşkilini Azərbaycanın milli sərvətinə böyük qayğı kimi qiymətləndirib: “Bu, məni çox sevindirir. Biz bu gün varıq, sabah yoxuq. Amma tariximizin yaşaması üçün bu işlər mütləq lazımlıdır. Bu sərgidə zəhməti olan hər kəsə təşəkkürümü bildirirəm”.

Xalq artisti Ağa Cəbrayıl Abasəliyevin fikrincə, sərgi bizə bu gün həmişəkindən daha çox vacibdir: “Bu sərgi onu sübut edir ki, bizim milli alətlərimizin tarixi çox böyükdür”.

İtaliyalı opera müğənnisi Paolo Levontino (tenor) sərginin onda gözəl təəssürat oyatdığını, bu qədər musiqi alətlərindən valeh olduğunu, böyük zövq aldığını deyib.

Xalq artisti Səkinə İsmayılova bildirib ki, əsrlərdən bəri günümüzə gəlib çatan muğam sənətinin gözəlliyi bu sərgidə əksini tapıb. Belə sərgilər, həmçinin muğam sənətimizin yaşamasına töhfə verir.

Xalq rəssamı Ağaəli İbrahimov xalqların bir-birinin mədəniyyəti ilə daha yaxından tanış olması baxımından da sərginin böyük əhəmiyyət daşıdığını söyləyib.

Heydər Əliyev Mərkəzində təşkil edilən sərgi, həqiqətən də, müxtəlif ölkələrin musiqi alətləri arasında fərqliliklə yanaşı, oxşarlıqları, musiqinin gücünü təcəssüm etdirir, mədəniyyətin dialoquna daha bir sənət körpüsü salır.

# Türk Mədəniyyəti və İrsi Fondu Milli Konservatoriya ilə əməkdaşlıq edəcək

Sentyabrın 18-də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə Azərbaycan Milli Konservatoriyası arasında anlaşma memorandumu imzalanıb.

Memorandum mədəniyyət və irsin qorunması, araşdırılması və təbliğ edilməsinə dair oxşar vəzifələri paylaşmaq və qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlıq etmək məqsədilə imzalanıb.

Sənədi Milli Konservatoriyanın rektoru Siyavuş Kərimi və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva imzalayıblar.

Professor Siyavuş Kərimi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini yüksək qiymətləndirərək imzalanan memorandum əsasında uğurlu layihələr icra ediləcəklərinə inandığını deyib.

Fondun prezidenti Günay Əfəndiyeva da bu əməkdaşlığın həm türk dünyası, həm də Azərbaycan üçün gözəl nəticələr verəcəyini bildirib.



Günay Əfəndiyeva türkdilli xalqların qədim və zəngin mədəni irsinin qorunması və təbliğinin önəmini diqqətə çatdırıb, bu istiqamətdə gördükləri işlərdən bəhs edib.

Qeyd edib ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə Azərbaycan və Türkiyə prezidentləri Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini yüksək qiymətləndiriblər. Bu, bizim üçün qürurdur, eyni zamanda məsuliyyətdir.

Qeyd olunub ki, memorandumda türkdilli xalqların mədəni irsinin təbliği və dahi şəxsiyyətlərinin yubileylərinin qeyd olunması məqsədilə konfrans, sərgi və digər tədbirlərin birgə keçirilməsi, Milli Konservatoriyanın tələbələri üçün istehsalat təcrübəsinin təşkili, tədqiqat işlərinin həyata keçirilməsində fərqlənən tələbələrə təqaüdün verilməsi, Milli Konservatoriyada “Türk Dünyası Musiqi Mərkəzi”nin yaradılması nəzərdə tutulur.

Tədbirdə çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral bildirib ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu yarandığı qısa müddət ərzində uğurlu fəaliyyəti ilə yadda qalıb.

Tədbir Milli Konservatoriyanın tələbələrinin konsert proqramı ilə davam edib.

## “Xəstəlik xəstəsi və ya yaşasın teatr”

### Şəkidə yeni teatr mövsümü

Şəki Dövlət Dram Teatrı sentyabrın 17-də mövsümü “Xəstəlik xəstəsi və ya yaşasın teatr” əsəri (J.Molyer, M.Bulqakov) əsasında səhnələşdirilmiş tamaşa ilə açıb.

Teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Mirbala Səlimlinin quruluş verdiyi tamaşa vaxtilə Şəki teatrında işləmiş mərhum rejissor, Əməkdar incəsənət xadimi Hüseynağa Atakişiyevin 70 illik yubileyinə ithaf olunub.

Tamaşanın quruluşçu rəssamı Nicat Məmmədov, geyim üzrə rəssamı Sahib Əhmədov, musiqi tərtibatçısı Zeynəb Orucovadır.

Bu il Şəkidə peşəkar teatrın yaranmasının 140 ili tamam olur. Bu münasibətlə teatrda yubiley tədbirinin keçirilməsi nəzərdə tutulur. Eyni zamanda görkəmli dramaturq Cəfər Cabbarlının 120 illiyi münasibətilə “Sevil” pyesinin və “Kitabi-Dədə Qorqud” eposunun motivləri əsasında Altay Məmmədovun yazdığı “Dəli Domrul” əsərinin tamaşaya qoyulması planlaşdırılır.



# Üzeyir bəyin yaratdığı ənənələr sevgi ilə yaşadılır

"Bu gün dahi Üzeyir Hacıbəylinin musiqisi ölkəmizin hüdudlarından çox-çox uzaqlarda – Çində, Amerikada səslənir. Bu musiqinin işğaldan azad ediləcək Qarabağda səslənməsini hər bir azərbaycanlı arzulayır".





Bu sözləri sentyabrın 18-də Üzeyir Hacıbəylinin ev-muzeyində Milli Musiqi Gününə həsr olunmuş tədbirdə Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva dedi.

Tədbiri giriş sözü ilə ev-muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov açaraq dahi bəstəkarın bənzərsiz yaradıcılığından söhbət açdı. Bildirdi ki, Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə təşkil olunan XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalında ABŞ, Rusiya, Çin, Türkiyə, İtaliya, Özbəkistan, Belarus, Bolqarıstan, Ukrayna və Gürcüstandan musiqi kollektivləri və ifaçılar iştirak edir. Sentyabrın 30-dək davam edəcək festival çərçivəsində ümumilikdə 40-a yaxın tədbirin keçirilməsi nəzərdə tutulur.

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva çıxışında diqqətə çatdırdı ki, Üzeyir Hacıbəyli zəngin yaradıcılığı ilə öz adını Azərbaycanın musiqi tarixinə əbədi olaraq həkk edib. Dahi bəstəkarın doğum gününün musiqi bayramı kimi qeyd edilməsi ənənəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və 1995-ci ildən başlayaraq 18 sentyabr tarixi ölkəmizdə Milli Musiqi Günü kimi yüksək səviyyədə keçirilir. Nazir müavini bildirdi ki, Heydər Əliyev hər zaman mədəniyyətə, incəsənət xadimlərinə xüsusi qayğı ilə yanaşıb. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sevda Məmmədəliyeva onu da qeyd etdi ki, bu günlərdə dövlət başçısının imzaladığı sərəncamlarla mədəniyyət xadimlərinin bir qrupu təltif olunub. Onların arasında Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru Sərdar Fərəcov da var. Nazir müavini Sərdar Fərəcovu "Xalq artisti" fəxri adına layiq görülməsi münasibətilə təbrik etdi, yeni-yeni yaradıcılıq uğurları arzuladı.

Sərdar Fərəcov çıxış edərək ölkəmizdə mədəniyyət xadimlərinə göstərilən qayğıya və fəxri ada layiq görüldüyünə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirdi.

Tədbirdə iştirak edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov musiqi bayramında Üzeyir Hacıbəylinin ev-muzeyində olmağından məmnunluğunu bildirdi. Dövlət tərəfindən mədəniyyətə daim böyük önəm verildiyini deyən icra başçısı vurğuladı ki, Üzeyir festivalı kimi böyük layihələrin həyata keçirilməsi Azərbaycan mədəniyyətinin inkişafına xidmət edən işlərdir.

Professor Telman Ağdamski, Əməkdar artist Yaqub Zurufçu çıxışlarında Milli Musiqi Gününün əhəmiyyətini yüksək qiymətləndirdilər. Üzeyir bəyin yaratdığı ənənələrin bu gün sevgi ilə yaşadıldığı vurğulandı.

Çıxışlardan sonra Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbi, G.Şaroyev adına 35 nömrəli Uşaq musiqi məktəbi, Şuşa şəhər Bülbülcan adına Uşaq musiqi məktəbi şagirdlərinin ifasında Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin əsərlərindən ibarət konsert proqramı təqdim edildi.

**Savalan FƏRƏCOV**

## Tütək çalınsın ki, mövsüm başlasın!

Sentyabrın 21-də Bakı Uşaq Teatrı yeni mövsümdə ilk tamaşasını oynayacaq. Kollektiv premyerası ötən mövsümün sonunda olmuş "Sehrli tütək" tamaşası ilə yeni mövsümə başlayacaq.

Azərbaycan xalq nağılı əsasında Maarif Məmmədovun səhnələşdirdiyi tamaşaya Əməkdar artist İntiqam Soltan quruluş verib. Rolları Rauf Hüseynli, Mehman Piriyev, Tofiq İsgəndərli, Natiq Fərzəliyev, Ədalət Ağaverdizadə, Könül Şahbazova, Gülər Ləzgiyeva, Qurban Əhmədov, Turə Qasımlı, Gülnarə Abbasova, Emin Balayev, Nərminə Məhərrəmova ifa edirlər. Tamaşanın rəssamı Sevda Məmmədova, bəstəkarı Mahir İbrahimlidir.

Mövsümün ilk tamaşası sentyabrın 21-də saat 12:00-da teatrın hazırda yerləşdiyi Qaraçuxur qəsəbəsi Q.Abbasov adına Mədəniyyət sarayında oynanılacaq.

## Müsabiqə qalibləri mükafatlandırılıb

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "Gəlin, birgə oxuyaq" adlı buktreyler müsabiqəsi və "Mən, yay, kitablar – ən yaxın dostlar" adlı rəsm müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Kitabxanadan bildirilib ki, müsabiqələrin məqsədi kitab və mütaliəyə olan marağı artırmaq və istedadlı uşaqları üzə çıxarmaqdır.

Tədbirdə uşaqların oxuduqları kitablar əsasında çəkdikləri rəsm əsərləri, kitablar sərgilənib və buktreyler müsabiqəsi üçün göndərilən videoçarx təqdim olunub. Valideynlər çıxışlarında belə tədbirlərin uşaqların dünyagörüşünün formalaşmasına müsbət təsir göstərdiyini, həmçinin kitabxanalara marağın artmasında böyük rol oynadığını bildiriblər.

Sonda qaliblərə hədiyyələr təqdim olunub.

## Qız qalasının önündə konsert

Milli Musiqi Günü və dahi bəstəkar, professional musiqimizin banisi Üzeyir Hacıbəylinin anadan olmasının 134-cü ildönümü münasibətilə İçərişəhərdə, Qız qalasının önündə konsert təşkil olunub.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və "Mədəniyyət" kanalının birgə layihəsi əsasında reallaşan konsertdə Azərbaycan Televiziyası və Radiosunun solistləri Üzeyir Hacıbəylinin və digər bəstəkarların əsərləri ifa olunub.

# Milli kino yeni inkişaf mərhələsində

*əvvəli səh. 1-də*

Dövlət Proqramına əsasən, mövcud problemlərin həlli, kino sənayesinin yenidən qurulması ilə bağlı C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında istehsal prosesinin təşkili, yarımçıq filmlərin tamamlanması, yaradıcı və texniki potensialın müəyyənləşdirilməsi və inkişaf etdirilməsinə diqqət artırıldı. "Xəzər dənizi" pitçinq (kino layihələrinin təqdimatı və müdafiəsi) layihəsinin icrası, ilk dəfə Kann kinofestivalında Azərbaycanın iştirakı, xarici mütəxəssislərlə müştərək layihələrin dəstəklənməsi və s. addımlar bu sahəyə göstərilən qayğının nəticələridir. Bundan əlavə, gənc rejissorların "Azərbaycanfilm" kinostudiyasına cəlb edilərək yeni filmlərin çəkilişi, 2012-ci ildə Azərbaycan Prodüserlər Gildiyasının yaradılması və aparıcı kino şirkətlərinin birləşdirilməsi, kino istehsalında daxili imkanlardan daha səmərəli istifadə edilməsi qarşıya məqsəd qoyuldu və bu proses tədricən həyata keçirildi.

2011-ci ildən "Azərbaycanfilm" kinostudiyasına rəhbərlik etmiş Əməkdar incəsənət xadimi Müşfiq Hətəmov bildirir ki, Prodüserlər Gildiyasının yaradılması ölkəmizdə prodüser kinosunun inkişafı istiqamətində atılan növbəti addımlardan oldu: "Bu qurumun təşkilində əsas məqsəd özəl və dövlət studiyalarının, o cümlədən aparıcı prodakşn şirkətlərinin birgə əməkdaşlığını təmin etmək idi. Əgər bir prodakşnda texnika, digərində mütəxəssis varsa, biz onları bir araya gətirməklə həm maliyyənin ölkə daxilində qalmasına, həmçinin şirkətlərin davamlı fəaliyyətinə şərait yaratdıq. Kino şirkətləri arasında sıx əlaqənin qurulması sahənin inkişafına təkan verəcək amillərdəndir".

### Gənclərə yaradıcı meydan

Bununla bərabər, "Azərbaycanfilm"in nəzdində "Gənc sinemaçılar" klubunun yaradılması, istedadlı gənclərin bu kluba cəlb olunması öz həllini uğurla tapdı. Kino sənətinə həvəs göstərən gənclərə özlərini sınamaq üçün imkanların yaradılması da bu proqramın bir hissəsini təşkil edirdi. "Azərbaycanfilm" kinostudiyası 2014-cü ildə qısametrajlı bədii film ssenariləri müsabiqəsi elan etdi. Həmçinin 2013-cü ildə Azərbaycan Prodüserlər Gildiyası "Geniş baxış" adlı tammetrajlı bədii film üçün ssenari müsabiqəsini keçirdi.

Bu müddət ərzində "Azərbaycanfilm" kinostudiyası film istehsalı ilə yanaşı, beynəlxalq layihələr çərçivəsində xarici şirkətlərlə təcrübə mübadiləsi aparıb. Yerli kadrların yetişdirilməsi və dəstəklənməsi məqsədilə layihə və təlimlər həyata keçirilib. Müxtəlif ölkələrdə yaşayan, təhsil alan, fəaliyyət göstərən gənc azərbaycanlı rejissor, ssenarist və operatorlar "Azərbaycanfilm"də film çəkmək üçün dəvət olunub. Onların iştirakı ilə 10-dək qısametrajlı bədii filmdən ibarət "4.1. Şəhər motivləri" və "40-cı paraleldə" kinoalmanaxları ərsəyə gətirilib.




Milli animasiya tarixində ilk dəfə çoxseriyalı cizgi filmlərinin istehsalı reallaşıb. Bundan əlavə, bir sıra sənədli və qısametrajlı filmlər məhz gənc mütəxəssislər tərəfindən ekranlaşdırılıb.

Film sənayesində fərqli təmayüllərin yaranması və inkişafı zərurəti nəzərə alınaraq reallaşdırılan müxtəlif səpkili müsabiqələr bu sahədə yeniliklərə də üfüq açıb. "Bu meydan, bu ekran", "Kino və tənqid", "Vətən and yerimizdir", "Yenifilm.az", "Xəzər", habelə cizgi filmləri üçün ssenari, Azərbaycan Prodüserlər Gildiyasının "Geniş baxış" tammetrajlı bədii film üçün ssenari müsabiqələri bu mənada diqqətəlayiq layihələrdəndir. Bu müsabiqələrə gənc rejissorlar və prodüserlər tərəfindən yüzlərlə kino layihəsi təqdim olunub. Münsiflər heyəti tərəfindən seçilən işlər əsasında müstəqil prodüser mərkəzlərində Mədəniyyət Nazirliyinin dəstəyi ilə 23 qısametrajlı film çəkilib.

Son illər yeni kinematoqrafçılar nəslinin beynəlxalq təcrübədən yararlanması üçün Mədəniyyət Nazirliyi tərəfindən 10 nəfər gənc Rusiya, Türkiyə, Kanada və İngiltərəyə göndərilib. 2017-ci ildə Ümumrusiya Kinematoqrafiya Universiteti ilə əməkdaşlıq çərçivəsində nazirliyin dəstəyi ilə azərbaycanlı bir neçə gəncin kino ixtisası üzrə bakalavr səviyyəsində təhsil almaq üçün Rusiyaya göndərilməsi təmin edilib.

### Tarixi yaddaş və mədəni irsə sayğı

Dövlət sifarişi ilə "Azərbaycanfilm"də lentə alınan "Dolu" (2012), "Nabat" (2014) bədii filmləri Qarabağ müharibəsindən bəhs edir. "Nabat" filmi dəfələrlə beynəlxalq festivallarda iştirak edərək müxtəlif mükafatlara layiq görülüb. Bu da Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük önəm kəsb edir. Həmçinin, dövlət sifarişi əsasında çəkilmiş "40-cı qapı", "Çölçü", "Axınla aşağı", "Qırmızı bağ", "İçərişəhər", "Qisas almadan ölmə", "Sonuncu", "Nar bağı" və s. filmlər son illərin maraqlı ekran əsərlərindəndir. Bu filmlərin bir çoxu Fransa, Almaniya, İngiltərə, ABŞ, Kanada, Avstraliya, Yaponiya, Çin, Rusiya və Hindistanda keçirilən beynəlxalq festivallarda 200 dəfədən çox nümayiş etdirilib, "Ən yaxşı film", "Ən yaxşı rejissor işi", "Ən yaxşı aktyor işi", "Ən yaxşı ssenari" kimi nominasiyalarda mükafat qazanıb.

Uzun fasilədən sonra ilk dəfə olaraq "Azərbaycanfilm"də uşaq filminin ("Dərs", 2015) çəkilməsi müasir kino salnaməmizdə hadisəyə çevrildi. Filmdə müasir Azərbaycan yeniyetmələrinin formalaşması, onların daxili dünyası və tərbiyə edilməsi kimi məsələlərə toxunulur. Həmçinin Uşaqlar üçün 3D formatda "Cırtdan və sehrli xalat" cizgi filmləri istehsal olunub.

"Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən "Salnaməfilm", "Yaddaş", "Azanfilm", "Mozalan" studiyalarında da maraqlı ekran əsərləri ərsəyə gəlir. Xüsusilə "Salnaməfilm"də Azərbaycanın Milli Qəhrəmanlarına həsr olunan silsilə filmlər, "20 Yanvar" ("Silahdaşlar"), "Cümhuriyyət tələbələri" kimi sənədli filmlər milli tarixi yaddaşın təbliğində xüsusi əhəmiyyətə malikdir. Tariximizin şanlı səhifəsi olan Xalq Cümhuriyyətinin kino salnaməsinin yaradılmasına bu sahədə çalışan digər qurumların ekran işləri, özəlliklə Bakı Media Mərkəzində çəkilən "Əbədi ezamiyyət", "Sonuncu iclas" kimi maraqlı filmlər də mühüm töhfə olub.

Hazırda dünyada müştərək filmlərin çəkilməsi tendensiyası geniş yayılıb. "Azərbaycanfilm" kinostudiyası da müxtəlif ölkələrin kino şirkətləri ilə birgə layihələrin həyata keçirilməsini diqqətdə saxlayır. Azərbaycan və Türkiyə kinematoqrafçılarının birgə istehsalı olan "Mahmud və Məryəm" (2013) filmi, Rusiya kinematoqrafçıları ilə "Qorxma, mən səninləyəm! 1919" (2013) bədii, alman mütəxəssisləri ilə birlikdə Qarabağ atlarından bəhs edən "Sarılar" (2016) sənədli və s. filmlər ərsəyə gəlib.

### 60-dək ölkədə 230-dan çox festivalda iştirak

Kino sahəsində həyata keçirilən islahatlar tədricən öz bəhrələrini verməyə başlayıb. Azərbaycan kinosunun sorağı dünyanın bir çox festivallarından gəlir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və himayəsi ilə 2011-2016-cı illərdə Kann kinofestivalında ölkəmizin xüsusi pavilyonu fəaliyyət göstərib. Minlərlə festival iştirakçısının ziyarət etdiyi milli pavilyonda yeni filmlərimiz nümayiş olunub.

Ötən dövrdə Azərbaycan paytaxtı da beynəlxalq film festivallarına ev sahibliyi edən şəhərlərin sırasına qoşulub. Bakı Beynəlxalq Turizm Filmləri Festivalı və Bakı Beynəlxalq İdman Filmləri Festivalı bu xüsusda yaddaqalan layihələr olub.

Bundan əlavə, milli kinonun beynəlxalq aləmdə təbliği də diqqət mərkəzində saxlanılır. Rusiya, İtaliya, Fransa, Türkiyə, İran, Macarıstan, Gürcüstan, Braziliya, İngiltərə, Koreya, Özbəkistan və Tacikistanda Azərbaycan kinosu günləri keçirilib. Müxtəlif xalqların kinosevərləri kino mədəniyyətimizin zəngin ənənələri ilə tanış olmaq imkanı əldə ediblər.

Ümumiyyətlə, kino sahəsinin inkişafı ilə əlaqədar Dövlət Proqramının həyata keçirildiyi 10 il ərzində "Azərbaycanfilm" və digər dövlət studiyalarında, eləcə də müstəqil kino müəssisələrində 300-dən artıq bədii, sənədli və cizgi filmi çəkilib. İstehsal edilən 60-dan çox ekran əsəri 59 ölkədə keçirilmiş 231 beynəlxalq film festivalında iştirak edərək müxtəlif nominasiyalarda 138 mükafat qazanıb. Təkcə 2019-cu ilin birinci yarısında 10 filmimiz 30 dəfə beynəlxalq festivallarda iştirak edib.

### Yeni hədəflərə doğru

Milli kinematoqrafiyanın müasir tələblər səviyyəsində inkişafını təmin etmək üçün kino sənayesinə yeni dövrün çağırışları kontekstində yanaşılması zəruridir. Məlum olduğu kimi, Prezident İlham Əliyev tərəfindən 1 mart 2019-cu il tarixində "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzalanıb. Sərəncamda Mədəniyyət Nazirliyinə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının və digər aidiyyəti qurumların təkliflərini nəzərə almaqla "Azərbaycan kinematoqrafiyasının inkişaf Konsepsiyası"nın hazırlanması tapşırılıb. Bu məqsədlə tanınmış kino mütəxəssislərindən, bu sahədə fəaliyyət göstərən ictimai təşkilatların və müstəqil prodüser mərkəzlərinin nümayəndələrindən, dövlətin kino sahəsinə məsul şəxslərindən ibarət İşçi qrupu yaradılıb. Ölkədə kinematoqrafiya sahəsində uğurlu fəaliyyət göstərən dövlət və özəl kino istehsalı, eləcə də nümayişi müəssisələrinə, bu sahədəki ictimai təşkilatlara müvafiq məktublar göndərilərək sözügedən konsepsiya ilə bağlı təkliflərini nazirliyə təqdim etmək xahiş olunub. "Azərbaycanfilm" kinostudiyası, "Salnaməfilm", Bakı Media Mərkəzi, "Nərimanfilm", "Ultra production", Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, "Sinema" Gənc Kinematoqrafçılar Mərkəzi və s. qurum və müəssisələrin, bu istiqamətdə fəaliyyət göstərən ictimai təşkilatların, eləcə də müstəqil kino mütəxəssislərinin təklifləri dinlənilib, mövcud vəziyyət, film sənayesinin yenidən qurulması, inkişafı ilə bağlı problemlər və s. məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Təqdim olunan təkliflər vaxtaşırı olaraq müəlliflərin iştirakı ilə İşçi qrupu tərəfindən müzakirə edilib.

Bundan əlavə, konsepsiyanın hazırlanmasında beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə İşçi qrupunun üzvləri Litva, Macarıstan və Gürcüstanda səfərdə olub, bu ölkələrin kino sənayesinin iştirakçıları ilə görüşlər keçirib, kinematoqrafiya sahəsindəki vergi, gömrük və digər imtiyazlarla bağlı təcrübələri təhlil ediblər. Bütün təkliflər nəzərə alınmaqla hazırlanmış "Azərbaycan kinematoqrafiyasının inkişaf Konsepsiyası"nın layihəsi ölkə başçısına təqdim olunub.

Onu da əlavə edək ki, kino haqqında yeni qanunun qəbul edilməsi də bu sahənin inkişafı üçün gündəm mövzularındandır. Mədəniyyət Nazirliyinin Kinematoqrafiya şöbəsindən verilən məlumata görə, yeni qanun layihəsi baxılması üçün Milli Məclisə təqdim olunub. Təbii ki, qanunun qəbulu kino sənayesinin inkişafına müsbət təsir edəcək.

Bununla bərabər, ölkə başçısının yuxarıda qeyd olunan sərəncamına əsasən, dövlət sifarişi ilə film istehsalını həyata keçirmək, həmçinin milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən şəxslərə dəstək olmaq, onların yaradıcılığını stimullaşdırmaq və yeni yaradıcı qüvvələri kinodramaturgiya sahəsinə cəlb etmək məqsədilə bu ilin mart ayında bədii, sənədli və animasiya filmi ssenariləri müsabiqəsi elan olunub. Müsabiqəyə hər hansı janr məhdudiyyəti olmadan vətənpərvərlik, milli-mənəvi və ümumbəşəri dəyərlər, uşaq və gənclər, eləcə də müasir həyatın digər prioritet mövzuları əhatə edən 200-dək film layihəsi təqdim edilib. Ssenarilər tanınmış kino mütəxəssislərindən ibarət münsiflər heyəti tərəfindən təhlil edilib və 18 ssenari istehsal imkanlarından asılı olaraq film çəkilməsi məqsədilə seçilib.

***

Bu gün dövlətin kino sahəsinə diqqət və qayğısı, o cümlədən sənətdə öz sözünü deməyə başlayan yeni istedadlı yaradıcı nəslin yetişməsi və təbii ki, bu sənətə illərini vermiş kino xadimlərinin təcrübə və bacarığından səmərəli istifadə milli kinematoqrafiyanın inkişafı üçün yeni bir mərhələ və yaradıcılıq üfüqləri açır. Üstəlik, kinolentin yaddaşına köçürülməli o qədər aktual mövzu var ki...

**Lalə ƏLƏKBƏROVA**

# Təbrizdə Şəhriyarın xatirəsi anılıb

Sentyabrın 18-də böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın (1906-1988) vəfatının 31-ci ildönümü tamam olub. Şəhriyarın vəfat etdiyi gün İranda "Milli şeir günü" kimi qeyd olunur.

Bu münasibətlə Təbrizdə dahi şairin anım mərasimi keçirilib. Şəhriyarın yaradıcılığını sevənlər onun muzeyə çevrilmiş evinə toplaşıblar. Şəhriyar fars və Azərbaycan dillərində yazdığı şeirləri ilə insanlara vətənpərvərlik duyğuları aşılayıb, milli ruhun oyanışında böyük xidmətlər göstərib.

M.Şəhriyarı XX əsr Azərbaycan poeziyasının nəhəngləri sırasına ucaldan, ilk növbədə, onun ölməz "Heydərbabaya salam" poeması olub. Şair bu əsəri ilə Azərbaycan türkünün milli həyatını bütün cəhətləri ilə göstərməyə müvəffəq olub. Sadə dildə yazılan poema hələ əlyazma şəklində yayılaraq şöhrət tapıb. Nə qədər ki, Azərbaycan xalqının qəlbi döyünür, Şəhriyarın bu poeması nəsildən-nəslə ötürüləcək və yaddaşlarda qalacaq.

# Metroda Üzeyir Hacıbəylinin musiqiləri səslənib

Bakı Metropolitenində 18 sentyabr – Üzeyir musiqi günü qeyd edilib. Qurumun mətbuat xidmətindən verilən xəbərə görə, artıq beşinci ildir ki, bu əlamətdar gün Bakı Metropolitenində xüsusi layihələrlə qeyd edilir.



Sentyabrın 18-də səhər saat 11-dən başlayaraq günorta saatlarına qədər metronun "İçərişəhər", "Sahil", "28 May" və "Elmlər Akademiyası" stansiyaları növbə ilə sərnişinləri canlı musiqi sədaları altında qarşılayıblar.

Metropolitenin sosial layihələrindən biri olan bu tədbirin proqramına milli və klassik musiqi nümunələri və xüsusən də Üzeyir Hacıbəylinin əsərlərindən parçalar daxil edilib. Peşəkar ifaçılar sərnişinlərdə günün ruhuna uyğun ovqat yaradıblar.

# "Dağlıq Qarabağ düyünü" kitabının təqdimatı

Sentyabrın 17-də ADA Universitetində "Dağlıq Qarabağ düyünü" kitabının (ingilis dilində) təqdimatı keçirilib. Kitabın müəllifləri ADA Universitetinin İctimai və beynəlxalq münasibətlər fakültəsinin baş müəllimi Azər Babayev, Almaniyanın Sülh Tədqiqatları İnstitutunun ekspertləri Bruno Şox və Hans-Joakim Spangerdir.

ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə kitab haqqında məlumat verib. Qeyd olunub ki, kitabın birinci hissəsində Dağlıq Qarabağ düyününün qaynaqları və münaqişənin həllinə dair geniş məlumat verilir. İkinci hissədə Aland, Bosniya və Herseqovina, Kosovo, Cənubi Tirol, Triyeste, Kipr, Şimali İrlandiya və Kvebekdə münaqişə halları nəzərdən keçirilir. Üçüncü hissəni isə alimlər "Nəticələr və qənaətlər: Dağlıq Qarabağdan çıxış yolu" mövzusuna həsr ediblər.

Sonra kitabın müəlliflərindən Bruno Şox və Hans-Joakim Spanger çıxış ediblər. Vurğulanıb ki, akademik nəşr Millətlər Liqası yarandığı vaxtdan bəri etno-ərazi münaqişələrinin həllində istifadə olunan siyasi modelləri araşdırır. Elmi tədqiqatın məqsədi Dağlıq Qarabağ düyününə aid ola biləcək həll mexanizmlərini üzə çıxarmaqdır.

Azər Babayev qeyd edib ki, nəşr Almaniyanın Sülh Tədqiqatları İnstitutu ilə uzun illər birgə əməkdaşlıq çərçivəsində həyata keçirilən elmi tədqiqat əsəridir. Beynəlxalq ictimaiyyətə akademik tövsiyə olan tədqiqatın nəticələri Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına həsr olunub.

Tədbirdə çıxış edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə heyətinin sədri Fərid Şəfiyev, ADA Universitetinin İctimai və beynəlxalq münasibətlər fakültəsinin dekanı Anar Vəliyev və başqaları kitab haqqında fikirlərini bölüşüblər.

# Dilin izdivac, ixrac və idxal imkanları

Azərbaycan dilində hər kəlməni, sözü sevmək, onun mənasını və mənalarını duymaq, hətta mövcud olma tarixinə baş vurmaq kəlmələrə, sözlərə olan sevgidir. Kəlmələrə, sözlərə olan sevgi bütövlükdə doğma ana dilinə – Azərbaycan dilinə olan sevgidir.

Bu fikirlər Dövlət Dil Komissiyasının üzvü, filologiya üzrə elmlər doktoru, professor Buludxan Xəlilovun "Adiloğlu" nəşriyyatında yeni çapdan çıxmış "Dilin möcüzəli imkanları" kitabında yer alıb.

Kitabda dilin tükənməyən bir möcüzə olduğu öz təsdiqini və təzahürünü tapır, dil quruculuğu prosesinin diqqəti cəlb edən tərəfləri təhlil olunur. Nəşrdə, həmçinin Azərbaycan dilinin izdivac, ixrac və idxal imkanları təbii bir prosesin nəticəsi kimi dil faktları əsasında araşdırılır, dilin praktik və mövcud imkanları xüsusi olaraq tədqiqat obyektinə çevrilir.

Kitabın elmi redaktoru filologiya üzrə elmlər doktoru, professor İsmayıl Məmmədli, rəyçiləri isə filologiya üzrə elmlər doktoru, professor Mahirə Hüseynova, filologiya üzrə elmlər doktoru Sərdar Zeynal və filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyevdir.

# İranda Azərbaycan dili tədris olunacaq

Bu il yeni dərs ilindən İran İslam Respublikasının Şərqi Azərbaycan vilayətinin bütün orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisinə başlanacaq.

Bu barədə Şərqi Azərbaycan vilayətinin valisi Məhəmmədrza Purməhəmmədi dərs ilinin başlanmasına həsr olunan müşavirədə deyib. O bildirib ki, fars dili İranda ümumi ünsiyyət dilidir. Lakin bununla yanaşı, ölkə konstitusiyasında xalqlara ana dilində təhsil almaq hüququ da verilib. Vali deyib ki, Azərbaycan dilinin tədrisi bəzi söz-söhbətlərə də son qoyacaq.

M.Purməhəmmədi qeyd edib ki, tədris üçün dərs proqramı və dərsliklər artıq hazırlanaraq məktəblərə verilib.

İranda dərs ili sentyabrın 20-də başlayır.

# Milli mədəniyyət mücahidi

## Milli Kitabxanada Üzeyir Hacıbəyliyə həsr olunmuş sərgi açılıb

Sentyabrın 18-də Milli Kitabxanada "Üzeyir Hacıbəyli – milli mədəniyyət mücahidi" adlı tədbir keçirilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov tədbiri açaraq bildirib ki, Azərbaycan xalqının dahi bəstəkarı Üzeyir Hacıbəylinin doğum günü mədəniyyət tariximizin əlamətdar günü – milli musiqi bayramıdır.

Direktor dahi bəstəkarın misilsiz xidmətlərindən bəhs edərək onun insan ömrünün gücünə, qüdrətinə sığmayan ölməz əsərlər yaratdığını söyləyib. Diqqətə çatdırılıb ki, Üzeyir Hacıbəyli Azərbaycan xalq musiqisini nota salaraq elmi əsaslarla tədqiq edib, milli musiqimizi dünya səviyyəsinə çatdırıb, "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, müsəlman Şərqində opera sənətinin əsasını qoyub.

Zəngin irsə malik Üzeyir Hacıbəyli eyni zamanda yazıçı, publisist, jurnalist, ictimai xadim olub. Azərbaycan xalqı onun mədəni irsini layiqincə qiymətləndirib, xatirəsini hər zaman əziz tutub. Ümummilli lider Heydər Əliyev tərəfindən Üzeyir Hacıbəyli irsinə layiqli qiymət verilib, 1975-ci ildə bəstəkarın ev-muzeyi açılıb, ulu öndərin müvafiq sərəncamı ilə Üzeyir bəyin doğum günü – 18 sentyabr Milli musiqi günü kimi qeyd olunur.



Kərim Tahirov onu da qeyd edib ki, dahi bəstəkarın irsini layiqincə təbliğ etmək məqsədilə Milli Kitabxana tərəfindən biblioqrafiya çap edilib, əsərləri dünya milli kitabxanalarına göndərilib.

Kitabxananın direktor müavini Ədibə İsmayılova da çıxış edərək Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı haqqında söhbət açıb.

Sonda tədbir iştirakçıları bəstəkarın həyat və fəaliyyətindən bəhs edən kitab sərgisi ilə tanış olublar. Sərgidə Üzeyir Hacıbəylinin operaları, musiqili komediyaları, publisistik əsərləri, haqqında yazılan kitablar və dövri mətbuat materialları nümayiş olunur.

# Niyazinin mənzil-muzeyinin 25 illiyi qeyd edilib

Sentyabrın 17-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin mənzil-muzeyinin açılışının 25 illiyinə həsr edilmiş tədbir keçirildi.

Tədbir iştirakçıları əvvəlcə muzeyin 25 illik fəaliyyətindən bəhs edən fotosərgi ilə tanış oldular.

Sonra Prezident Heydər Əliyevin 1994-cü il sentyabrın 18-də muzeyin açılış mərasimindəki nitqinin videoyazısı və muzeyin 25 illik fəaliyyətini əks etdirən slayd-şou nümayiş olundu.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova çıxış edərək muzey haqqında məlumat verdi. Bildirdi ki, bu mədəniyyət ocağı maestro Niyazinin zəngin irsini, xatirəsini yaşadır. O, bu mənzildə 1958-ci ildən ömrünün sonunadək – 1984-cü ilədək yaşayıb, yaradıb.

Mədəniyyət Nazirliyinin Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin müdiri Azadə Hüseynova çıxış edərək muzeylərə diqqət və qayğıdan danışdı. Bildirdi ki, respublikamızda muzeylər şəbəkəsinin yaradılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun Azərbaycana rəhbərlik etdiyi dövrlərdə muzeylərin, xüsusilə, tarix-diyarşünaslıq, xatirə, ev-muzeylərinin və digər profilli muzeylərin yaradılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə tədbirlər həyata keçirilib.

Niyazinin mənzil-muzeyinin müdiri, Əməkdar mədəniyyət işçisi Rza Bayramov muzeyin 25 illik fəaliyyəti haqqında geniş məlumat verdi. Qeyd etdi ki, muzeyin əsas



vəzifəsi maestronun həyat və yaradıcılığını əks etdirən eksponatlar vasitəsilə xalqımızın yüksək mədəniyyətə, incəsənətə malik olmasını təbliğ etmək, bu irsi gələcək nəsillərə tanıtmaqdır.

Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarovanın adından şöbə müdiri Arifə Zülfüqarova çıxış edərək muzeyin rəhbərliyinə və əməkdaşlarına fəxri fərman və pul mükafatları təqdim etdi.

Tədbir bədii hissə ilə davam etdi. Pianoçu, Əməkdar artist Adilə Əliyeva, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri – əməkdar artistlər Elnur Zeynalov, Elxan Mansurov, Səbinə Vahabzadə, Tural Ağasıyev, Fərid Əliyev, solistlər Taleh Yəhyayev, Nina Makarova, Rəvanə Əmiraslanlı, Nərgiz Ağayeva, Azərbaycan Televiziya və Radiosunun solistləri Ayan Tohidi və Bəsti Qasımovanın ifalarında konsert proqramı təqdim olundu.

**Savalan FƏRƏCOV**

# İğdırda Azərbaycan-Türkiyə qardaşlığının nümayişi

1918-ci ilin 15 sentyabr tarixinin – Bakının erməni-bolşevik işğalından azad olunmasının 101-ci ildönümü qardaş Türkiyədə də qeyd olunub. İldönümü ilə bağlı Ankarada TRT-nin təşkilatçılığı ilə mərasim keçirilib.

Ortaq tariximizin şanlı səhifəsinə həsr olunmuş tədbirlər İğdır bölgəsində də təşkil edilib. İğdır şəhər Mədəniyyət sarayında İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin təşəbbüsü, İğdır Valiliyi, ölkəmizin Qarsdakı Baş konsulluğunun dəstəyi ilə keçirilən konfransa rəsmilər, yerli ictimaiyyət nümayəndələri, QHT və media təmsilçiləri qatılıb.

Tədbir Azərbaycan və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlanıb. Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, ruhlarına Qurani-Kərimdən ayələr oxunub.

Mərasimdə Azərbaycanın Qars şəhərindəki baş konsulu Nuru Quliyev, İğdır valisi Ənvər Ünlü və İğdır-Azərbaycan dərnəyinin başqanı Ziya Zakir Acar çıxış ediblər. Azərbaycan-Türkiyə qardaşlığının tarixindən bəhs edən çıxışçılar böyük öndər Mustafa Kamal Atatürk və ümummilli lider Heydər Əliyevin xalqlarımızın can birliyini tərənnüm edən ibrətamiz fikirlərini xatırladıblar. Qafqaz İslam Ordusunun şərəfli missiyasından danışılıb. Bildirilib ki, Azərbaycan xalqı hər zaman torpaqlarımız üçün canını fəda edən türk övladlarının ruhunu ehtiramla yad edir.



Sonra Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç, AMEA-nın Tarix İnstitutunun əməkdaşı, dosent İlqar Niftəliyev və BDU-nun Tarix fakültəsinin dosenti Arzu Məmmədovanın məruzələri dinlənilib.

Azərbaycanın dövlətçilik tarixi, 1918-ci ildə Cümhuriyyətin qurulması, Qafqaz İslam Ordusunun böyük rəşadətlə xalqımızın köməyinə gəlməsindən bəhs edən məruzəçilər bir fikri əminliklə ifadə ediblər ki, "bir millət – iki dövlət" olan Azərbaycan və Türkiyə əbədiyyətə qədər bir-birinin sevincini sevinc, kədərini kədər kimi qarşılayacaq. Məruzələrdə XX əsrin əvvəllərində olduğu kimi əsrin sonunda, SSRİ-nin süqutu ilə bir zamanda ermənilərin Azərbaycana qarşı həyata keçirdikləri mənfur planlarından söz açılıb. Diqqətə çatdırılıb ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası Türkiyə ictimaiyyətinin də ən böyük arzusudur. Türkiyə bundan sonra da Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqq işini müdafiə edəcək.

Konfransdakı qardaşlıq və birlik çağırışları hərarətli alqışlarla qarşılanıb.

Sentyabrın 16-da bu tədbirin davamı kimi İğdır bölgəsindəki Tuzluca rayonunda yerləşən Təkaltı dağına doğru Azərbaycan-Türkiyə həmrəylik yürüşü keçirilib. Aksiya Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıçın təşəbbüsü ilə gerçəkləşib. H.Kılıç fikirlərini belə ifadə edib: "Bakı şəhərinin azad olunmasının 101-ci ildönümünü belə bir yürüşlə də qeyd etməyə qərar verdik. Bakı bütün türk dünyası üçün çox önəmli məkandır. Mən bunu ilk dəfə söyləyirəm: İstanbul nə qədər islam dünyasının paytaxtıdırsa, Bakı da o qədər türk dünyasının paytaxtıdır. Türk dünyasında Bakının çox özəl yeri var. Bakı şəhəri üçün şəhid olan əsgərlərimizin ruhları şad olsun".

Keçmiş diplomat Qafqaz İslam Ordusunun mücadiləsinin şanlı bir tarix olduğunu vurğulayaraq bununla bağlı tarixi mənbələri böyük maraq və heyranlıqla oxuduğunu deyib: "Bu, çox önəmli hadisədir. 1918-ci ildə Osmanlı imperatorluğunu parçalamaq üçün çalışan güclər var idi. Osmanlı 4 cəbhədə vuruşurdu. Xəbər gəldi – Bakı işğal altındadır. Osmanlı 7 min əsgərini Azərbaycana, köməyə göndərdi. Bakı azad edildi. O qərarı verənlərə sayğılarımı ifadə edirəm".

Yürüşçülər Azərbaycan və Türkiyənin dövlət bayraqlarını, həmçinin Milli Qəhrəman Mübariz İbrahimovun portretini Ağrıdağ Dağçılıq və Təbiət İdman Növləri Klubu tərəfindən simvolik olaraq Milli Qəhrəmanın adı verilən zirvəyə qaldırıblar.

**Mehparə SULTANOVA**
**Ankara**

# Azərbaycan-Çin əlaqələrinin tarixi araşdırılacaq

Oktyabrın 12-dən 16-dək Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunda "Azərbaycan və Çin Böyük İpək Yolunda" adlı dəyirmi masa keçiriləcək.

Çin nümayəndə heyətinə Çin İctimai Elmlər Akademiyasının (ÇİEA) Dünya Tarixi İnstitutunun direktoru, professor Van Çaoquanq rəhbərlik edəcək.

Tədbirdə AMEA-nın Tarix İnstitutu ilə ÇİEA-nın Dünya Tarixi İnstitutu arasında Azərbaycan-Çin əlaqələri tarixini araşdıran iki mərkəzin yaradılması barədə müqavilənin imzalanması da nəzərdə tutulub. Mərkəzlərdən biri Bakıda Tarix İnstitutunun nəzdində, digəri isə Pekində Dünya Tarixi İnstitutunun nəzdində fəaliyyət göstərəcək. Mərkəzlərdə iki ölkə arasında əlaqələrin tarixi qədimdən müasir dövrədək araşdırılacaq. Çin alimlərinin əsərləri Azərbaycanda, azərbaycanlı alimlərin əsərləri Çində nəşr olunacaq.

Hazırda Tarix İnstitutunda "Azərbaycan-Çin əlaqələri tarixindən" kitabı nəşrə hazırlanır. Kitabın müəllifləri tarixçi alimlər Nərgiz Axundova və Xou Aytszyun, elmi redaktoru isə akademik Yaqub Mahmudovdur.

AMEA-nın Tarix İnstitutu Çinin Dünya Tarixi İnstitutu ilə 2015-ci ildən əməkdaşlıq edir. 2016-cı ildə isə Nərgiz Axundovanın "Azərbaycan və Çin mədəniyyətlərinin tarixi əlaqələrinə dair" kitabı çap olunub.

# “Əbədi ezamiyyət” beynəlxalq sərgidə nümayiş olunub

Pekində 16-cı Çin Beynəlxalq Film və Televiziya Proqramları sərgisi keçirilib. Dünyanın ən böyük media təsisatlarından olan “China Media Group” və Çin Beynəlxalq Televiziya Korporasiyasının təşkilatçılığı ilə keçirilən sərgi müxtəlif ölkələrin media qurumları arasında əməkdaşlığın qurulmasına və genişlənməsinə dəstək vermək, habelə media və filmlər vasitəsilə ölkələrin turizm potensialının tanıdılması məqsədi daşıyıb.

Milli pavilyonların təqdim olunduğu sərgidəki Azərbaycan guşəsində ölkəmizə aid müxtəlif jurnallar, broşürlər, bukletlər nümayiş olunub və ziyarətçilərə paylanılıb.

Azərbaycanın Pekindəki səfirliyinin hazırladığı pavilyonda, həmçinin ölkəmizdə turizmin inkişafından bəhs edən videoçarxlar da nümayiş olunub.

Sərgi çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi və Arzu Əliyevanın baş prodüserliyi ilə Bakı Media Mərkəzi tərəfindən çəkilmiş “Əbədi ezamiyyət” sənədli filmi təqdim olunub. Film Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu ilin yanvarında parlament sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris Sülh Konfransına ezam etdiyi nümayəndə heyətinin keşməkeşli taleyindən bəhs edir.

Qeyd edək ki, dünyanın 50-dən çox ölkəsindən 80 minə yaxın ekran işinin təqdim olunduğu sərgidə televiziya və film sənayesində tətbiq olunan ən son texnoloji yeniliklər, o cümlədən 5-ci nəsil mobil rabitə şəbəkəsi, süni zəka, virtual reallıq və 4K çəkiliş texnologiyası nümayiş olunub.

# KONFUTSİ –

## “Tacsız hökmdar”, “Yüz min nəslin atası” qəbilli onlarla qiymətin, “Başqalarına özün kimi baxmaq — humanizm incəsənətidir!” kimi yüzlərlə deyimin müəllifi

Eramızdan əvvəl 551-ci ildə Çinin Lu vilayətində doğulub yetmiş il ömür sürmüş, adı tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısına düşmüş bu adamın tərcümeyi-halı milyon-milyardlarınkından o qədər də fərqlənmir; 19 yaşında ailə qurub, 22 yaşında (72-si görkəmli şəxsiyyət olmuş 3 mindən çox şagirdin ustadı olası) müəllimliyə başlayıb...

Tarixi sənədlərdə bu “qeyri-adi bəşər övladı”nın dolanışıqçün çobanlıq da etdiyi, anbar gözətçisi işlədiyi, siyasi karyeraya 50 yaşında başlayıb yüksək mövqelərə (ədalət naziri) yol tapdığı, ictimai-siyasi həyatda böyük rol oynadığı, lakin intriqalara dözməyərək istefa verdiyi də göstərilir. 10 illik müddətə bütün Çini səyahətə çıxması, “Yaz və payız”, “Tarix”, “Şeir və mahnı”, “Dəyişiklik” kimi klassik əsərlərin müəllifi, tərtibçisi olması isə konkret faktlardandır.

Hər gün dahiliyə yürüyən bu mütəfəkkirin siyasi və etik görüşləri şagirdləri tərəfindən tərtib edilmiş “Söhbətlər və mülahizələr” (“Lun yuy”) kitabında o dərəcə-mərtəbədə ifadə edilir ki, e.ə. II əsrdə rəsmi ideologiya kimi qəbul olunmuş Konfutsiçilik dövlət dini səviyyəsinə də qalxır və bugünədək çinlilərin dünyagörüşü və həyat tərzinə əsaslı təsir göstərməkdədir.

“Yüz min nəslin atası” hesab edilən –

### Konfutsiyə görə –

“dövlət böyük ailə, ailə kiçik dövlətdir” və hər ikisində hökmdar – ata, qalanlar (təbəələr) isə – əsas borcu onlara (ümumən “böyüklər”ə) sədaqət və itaətdən ibarət olan övladlardır.

Siyasi idealı – xeyirxah aristokratların gerçəkləşdirdiyi bir hakimiyyətdən, hər bir insanın öz vəzifəsinə ciddi riayət edib, müsbət məfkurəli mərasimləri daim qutlamasından ibarət olan filosof ictimai düzənin saxlanmasında mənəviyyata hədsiz əhəmiyyət verib. Onun İDEAL İNSAN (tszyun-tszı) konsepsiyasında hər kəs mənşəyinə görə deyil, tərbiyəsinə və öz bacarığını inkişafetdirmə qabiliyyətilə alicənab sayılır. “İnsan ilk növbədə humanist, ədalətli, sadiq, səmimi olmalı, daim biliklərə can atmalı, valideynlərinə, yaşlılara hörmətlə yanaşmalı, ailə bağlarına hörmətsizliyin Göy tərəfindən cəzalandırılacağı düşüncəsilə yaşamalıdır”.

Öz təlimində “Xalqın etibarını qazanmayan hökumət ayaqda dayana bilməz” fikrini xüsusi vurğulamış Konfutsi “qarşılıqlı anlaşma”, “ortaq yol” rəhbərliyini müdafiə etmişdir.

Çinin sosial-siyasi kataklizmlər (patriarxal normaların dağıldığı, məmurların acgözlüyü nəticəsində xalqın cana doyduğu) dönəmində yaşayan və ötən əsrləri “özününkü”ndən üstün tutan Konfutsi bu müqayisə əsasında “tzyun-tszı” (xeyirxah-mükəmməl xadim) idealı arzusuna düşür. Həmin “ideal” iki vacib üstünlüyə – humanizm və borcluluq duyğusuna malik olmalı idi. Bu konsepsiyanın əsası isə: “özünə arzulamadığını, başqasına da rəva bilmə” prinsipidir.

Mənsub olduğu ölkədə dindən də güclü bir məfkurə hesab edilən Konfutsi təlimi bütün dövrlərin siyasi-inzibati sistemi, iqtisadi-sosial proseslərin əsas tənzimləyicisi, Çin həyat tərzinin özülü kimi qiymətləndirilib. Bu təlim 2500 ildir ki, çinlilərin ağıl və duyğularının formalaşmasına, onların məişət, inanc, psixologiya, düşüncə və davranışlarına ciddi təsir etmədə, mənsub olduğu ölkədən kənar cəmiyyətlərdə belə milli mədəniyyətlərin bir çox çalarlarına ali rənglər qatmaqdadır.

### “Humanizm”...

Çağımızda çox işlənən xoş terminlərdən biri.

İki min beş yüz yaşlı Konfutsi, insanlara sevgi, rəhmdillik, ləyaqət, təvazö-təmənnasızlıq kimi məziyyətləri ehtiva edən bu keyfiyyəti daha çox, qədim insanların malik olduğu bir ideal hesab edir və öz konsepsiyasında (“tzyun-tszı”) bunların humanistlikçün yetərli (kifayət) olmadığını bildirir, bu ifadə çərçivəsində borcluluq duyğusunu əsas sayır. Bu mənəvi öhdəlikdən xali insanın daim ictimai hədəfə yox, şəxsi mənafeyə işləyəcəyi fikrini vurğulayan Konfutsi bu kimi qənaətlərə gəlir: “Xeyirxah adam həmişə boynuna düşən ictimai borc haqda düşünür, rəzil adam isə yalnız şəxsi mənfəət haqda”, “İnsan hər zaman “qızıl orta”nı gözləməli, heç zaman ifrata varmamalıdır – nə qatı nifrət, nə əndazəsiz məhəbbət!”.



İbrətamiz məziyyətlərə malik bu mücərrəd idealı – “alicənab insan”lığı ən uca sosial nüfuz və şərəf hesab edən Konfutsi, bu kultu dövlətçilik törələrini əhatə edən bütün səviyyələr üçün stimul sayırdı. O bu “ideal”da mərasimlərə (nikah, dəfn, qurbankəsmə və s.) rəğbəti də mühüm keyfiyyət hesab edir, bunlara – insanlar arasında ən vacib qayda-qanunlar mübadiləsinin təsdiqi olaraq – Səma ilə Yerin ortam əlaqəsi kimi baxırdı.

Konfutsinin fikrincə, xalqı “tale ümidi-alın yazısı”na (özbaşına, özxoşuna) buraxmaq olmaz. Cəmiyyət həyatında təbiilik, qanunlar arasında harmoniya hökm sürməlidir. “Təbiət sünilikdən irəlidə olanda barbarlıq, sünilik təbiəti ötəndə isə ikiüzlülük alınır. Xeyirxah insan yalnız təbii və süninin tarazlığında yaranır” deyən filosof əhalini dörd kateqoriyaya bölürdü: Anadangəlmə müdriklər; Müdriklik qazana biləsilər; Çətinliklə təlim görəsilər; Bilik əldə edə, müdriklik qazana bilməyən camaat.

Özünü “hərşeyibilən”lərdən hesab etməyən Konfutsi həyatın mənası, Allah və ölümsüzlük haqda suallara cavab aramamış, axtaranları isə belə cavablamışdır: “Biz həyatın nə olduğunu bilmiriksə, ölümün nə olduğunu hardan bilək?!”.

### “Dövlət – böyük ailə –

ailə isə – kiçik dövlətdir” formulunun müəllifi əcdadlara sitayişə dərin məna verir, bunu hər bir çinlinin ilkin vəzifəsi hesab edirdi. “Bunun əksi – “üzünü itirmək”dir. Sələfliyə normal sitayiş xələfliyin eqoizmə yuvarlanma təhlükəsindən xilasıdır”. Böyük keçənəklər platformasında dayanıb, hələlikdə iki yarım minillik gələnək fenomeninə çevrilmiş bu müdrik ümuməxlaqi-siyasi intizamın bir hissəsinin süni kultlaşdırma olduğu qənaətinə gələrək deyirdi: “Əgər əcdadlarımız qarşısında olan borcumuzun ödənilməsinə cəhd etməsək, ümuməxlaq dayanıqlığından danışmağa dəyməz”.

Konfutsiçiliyin başlıca triumfunu Konfutsinin canının büsbütün çinli ana südü ilə yoğurulması ilə izah edənlər var. Yazırlar ki, insanları onun mistisizmdən xali rasional etikası cəlb edir, “o öz humanizm, mötədillik və ortalıq ruhu ilə ürəkləri fəth edir! Onun əhdi konkret, dünyəvi və hamı tərəfindən başa düşüləndir. Sadə xalq ona öz maraqlarının müdafiəçisi, imkanlı təbəqə – hüquqlarının təminatçısı, bütün millət – ona tərəqqi bəxş etməyə qabil dahi rəhbər kimi baxır”.

Bu məqamda vurğulayaq ki, uğurca bəşər miqyaslı –

### Bu irsi –

rədd etmək cəhdləri tarixən uğursuzluqla nəticələnib. Məsələn, bu təlim 206-cı ildə yeni Xan sülaləsinin hakimiyyətə gəlməsilə yenidən dirçəldildiyi, qəbrinə qurban gətirən imperator tərəfindən Konfutsi rəsmi olaraq “Millətin ən müdriki”, “Səma elçisi”, “Tacsız hökmdar”ı elan edildiyi, irsi rəsmi ideologiya statusu aldığı halda, e.ə. III yüzilliyin ortalarında taxta çıxan və Çində ilk “mədəni inqilab”a başlayıb, “dövlət ideologiyasına zidd” hesab etdiyi bu təlimləri səpki-sərgiləyən bütün kitab və ədəbiyyatı yandırmaq (lakin... bütün siyasi imperatorların fövqündə dayanan bu filosof-imperatorun əlyazmalarını qoruyan və hətta başdan-ayağa əzbərləyib yaddaşında saxlayanlar da varmış!), yüzlərlə qatı konfutsiçini diri-diri torpağa basdırmaq, “şübhəli”ləri Böyük Sədd tikintisindəki “qul əməyi”nə göndərmək əmri verən Tsin Şi-Xuandinin sülaləsi məhz bu cəhdin nəticəsi olaraq süquta uğrayıb.

Bu təlimi ikinci “mədəni inqilab” dövründə (XX əsr) “basdırmağa” cəhd edən Mao-Tszedun da uğursuzluğa uğrayıb. Beləliklə, onun ölkəsi 2000 ildən çoxdur bu filosofun “İnsanın mövcudluğu üçün tərbiyə və təhsil maddi tələbatlar qədər zəruridir” əminliyilə yaşamaqdadır.

Mütəxəssislər içərisində konfutsiçilik ruhunun hələ ibtidadan “Çin çərçivəsi”lə məhdudlaşmadığı fikrində bulunanlar qeyd edirlər ki, rasionalizm və maarifçiliyin hökmranlığı dövründə bu təlimin Qərb şöhrəti daha vüsətli olub. İyirminci əsrin əvvəllərinədək Çində rəsmi ideologiya, 1949-cu ilə qədərsə hakim ruhani mövqe tutmuş bu təlim 1960-cı illərin kommunist-ideoloji darmadağınından sonra bir çox əcnəbi ölkələrə “ixrac” olunsa da, ÇXR-də öz vaxtını səbirlə gözləyən milli ideya daşıyıcısı kimi, yenidən uğurla dirçəlməkdədir.

### Haqqında deyilmiş –

“Yüz min nəslin atası” kimi onlarla, əsərlərindəki “Elm, bilik o qədər böyük həzz mənbəyidir ki, insana hətta necə qocaldığını da unutdura bilər”, “Heç vaxt insan ümidiylə oynamayın; bu, onların yardımsız sahib olduqları yeganə nemətdir”, “Qaranlığı lənətləməkdənsə, bir şam yandırın”, “Almaz yonulmazsa, insan yanılmazsa, mükəmməlləşməz”, “Günah quyunun dərinliyində deyil, ipin qısalığındadır”, “Yaxşı insanlar həmişə məğlub olurlar – ədalətli döyüşdüklərinə görə” kimi yüzlərlə fikir-qənaətlər belə bir sübut-isbatda ki, bu çox qədim çinli bütün bəşər üçün çox-çox maraqlı Adam...

Lakin bu maraqlılıq orbitində iki barışmaz qoşalıq da fırlanmada. Belə ki, mütəxəssis-araşdırıcıların bir parası deyir ki, Konfutsi təlimində Allah anlayışı ümumiyyətlə yoxdur, başqa bir qisimsə “Çin və dünya fəlsəfi sisteminə Konfutsi qədər təsir göstərmiş filosof tapmaq çətindir” qənaətindədir. “Bu təsir o qədər güclü olmuşdur ki, “Konfutsianizm” adlı yeni bir din yaranmışdır”. Buyur, o boyda təlimində Allah anlayışına toxunmayan bir bəndə və dinyaratma? Hələ özünün söylədikləri içərisindəki “Tanrım! Səndən başqa hər şeyi olanlara yazığım gəlir!” postulatı!...

Konfutsi Çindəki daxili çəkişmələrin əxlaqi səbəblərdən qaynaqlandığını düşünür və bu fikrə düşür ki, həm fərdlərin, həm də dövlətin düzgün yönləndiriləcəyi təqdirdə keçmiş səltənəti, rifah və inkişafı bərpa etmək mümkün olacaq. “Öyrənməyi sevməkdən ötrü biliyə, fəaliyyətə yaxın olmaq üçün alicənablığa yaxın olmalısan”. Öz arzularını, düşüncələrini və davranışlarını təkmilləşdirmək həyat boyu davam edən prosesdir. Sən bir həftə ərzində ideal “ali insan” ola bilməzsən”.

Həmfikirlərindən biri ondan Çin dövləti başçısının fəzilətsizləri məhv edib-etməməli olduğu barədə soruşanda, belə cavab verir: “Sən idarə edənsən: öldürməyə nə gərək var? Əgər yaxşılığı arzu edirsənsə, xalq da yaxşı olacaq. Ali insanın fəziləti küləkdir, adi insanın fəziləti isə ot. Otun üzərindən külək əsəndə, əlbəttə təzim edəcək”.

### Və... taleyin ironiyası!

Bu ümumbəşər oğlunun atası şöhrətli bir savaşçı imiş, hamı ona hörmət edər, yolunu gözləyərmiş. Ancaq çoxsaylı övladlarının hamısı qız olduğu üçün özünü bədbəxt adam sayan ata öz kənizilə evlənir. Kənizdən doğulan oğlu isə xəstə və şikəst! 66 yaşlı döyüşçü bu dəfə 20 yaşlı qızla nikaha girir və Konfutsi dünyaya gəlir...

O dövr qaydalarına görə, öz kənizinə evlənmək və bu azmış kimi, onu boşayıb cavan bir qız almaq “ikiqat barbarlıq” sayılırmış və... belə çıxır ki, Konfutsi özü, əsasını qoyduğu və bütün həyatı boyu mühafizəkarcasına müdafiə etdiyi təlimin “ritual normaları pozuntusu” nəticəsi imiş; yəni o ata bu oğulun təlimilə oturub-dursaymış, dünya Konfutsi fenomenindən xali qalacaqmış(?)...

Bu dahinin yaratdığı cahanşümul “Tzya-tzyao” (intellektual şagirdlər məktəbi) təlimdə öz adının olmaması da təsadüfi deyildi; onun məram-məqsədi yeni təlim yaratmaq yox, uzaq keçmişlərin insanayaxın hər nəsnəsini sevmək, onları yaşatmaq olub.

Bu məqamda qeyd edək ki, konfutsiçilərin sələfləri sonralar Onüçkitabçılığın – konfutsiçiliyin qanun-qaydalarını təşkil edən, tarixi “Xan dövrü”nə – e.ə. 140-87-ci illərə gedib çıxan 13 qədim Çin klassik əsərinin bir hissəsini təşkil etmiş kitabları təlim etməklə dolanıblar.

“Bütün zamanlar azmanı” hesab edilən bu müdrik sağlığında bəzi uğursuzluqlara düçar olsa da, ölümündən sonra ideyaları tələbələri tərəfindən elə bir şövq və fədakarlıqla yayılıb ki, konfutsiçilik yaşayanlarçün fundamental fəlsəfəyə çevrilib...

**Tahir ABBASLI**

## Xatirə təqvimi 21-23 sentyabr

### Azərbaycan

**21 sentyabr 1865** – Milli teatrımızın ilk peşəkar aktyorlarından biri, rejissor, teatr təşkilatçısı Cahangir Məşədi Rza oğlu Zeynalov (1865 – 22.10.1918) anadan olub. XX əsrin əvvəllərində “Nicat”, “Səfa” və “Nəşri-maarif” mədəni-maarif cəmiyyətləri nəzdindəki teatr truppalarında aktyorluq edib, tamaşalara quruluş verib.

**21 sentyabr 1938** – Şairə, yazıçı Nurəngiz Gün (Quliyeva; 1938 – 20.12. 2014) Bakıda doğulub. Azərbaycan Televiziyasının diktoru olub, “Var olun, qızlar...” filmində çəkilib.

**21 sentyabr 1982** – Əməkdar artist Hacıməmməd Ələkbər oğlu Qafqazlı (Quliyev; 1898-1982) vəfat edib. Akademik Dram Teatrında çalışıb. “Qızmar günəş altında”, “Yeddi oğul istərəm” və s. filmlərdə çəkilib.

**22 sentyabr 1909** – İlk azərbaycanlı kinorejissorlardan Səməd Həşim oğlu Mərdanov (1909 – 6.8.1939) anadan olub. 1939-cu ildə “Kəndlilər” bədii filmini çəkib. Tanınmış aktyor Mustafa Mərdanovun qardaşıdır.

**22 sentyabr 1924** – Əməkdar artist, kontrabas ifaçısı İlyas Hüseyn oğlu Hüseynov (1924-2017) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub.

**22 sentyabr 1929** – Əməkdar elm xadimi, filosof Həsən İsmayıl oğlu Şirəliyev (1929 – 30.11.1997) anadan olub.

**22 sentyabr 1964** – Məşhur xanəndə, Qarabağ muğam ifaçılığı məktəbinin görkəmli nümayəndəsi İslam Əbdül oğlu Abdullayev (Segah İslam; 1876-1964) vəfat edib.

**23 sentyabr 1928** – Tanınmış opera müğənnisi, SSRİ Xalq artisti Firəngiz Yusif qızı Əhmədova (1928 – 16.12.2011) anadan olub. Akademik Opera və Balet Teatrının solisti (1951-1988) olub. Əsas partiyaları: Nigar (“Koroğlu” – Ü.Hacıbəyli), Nərgiz, Gülzar (“Nərgiz”, “Şah İsmayıl” – M.Maqomayev), Sevil (“Sevil” – F.Əmirov).

**23 sentyabr 1929** – Tarixçi, şərqşünas, türkoloq Yusif Bəhlul oğlu Yusifov (1929 - 4.1.1998) Qərbi Azərbaycanın Vedi mahalında doğulub. Azərbaycan Pedaqoji Universitetinin professoru, mixi yazılar üzrə mütəxəssis olub.

**23 sentyabr 1969** – Şair-publisist Ülvi Yusif oğlu Bünyadzadə (1969 – 20.1.1990) anadan olub. Bakıda 20 Yanvar qırğınında şəhid olub.

**23 sentyabr 1970** – Görkəmli yazıçı-dramaturq, ssenarist Sabit Rəhman (Sabit Kərim oğlu Mahmudov; 26.3.1910 – 1970) vəfat edib. “Toy”, “Nişanlı qız”, “Əliqulu evlənir” və s. pyeslərin, “Əhməd haradadır?”, “Ulduz” filmlərinin ssenari müəllifidir.

### Dünya

**21 sentyabr 1866** – İngilis yazıçısı Herbert Uells (Herbert George Wells; 1866-1946) anadan olub. Elmi-fantastik romanların müəllifidir: “Zaman maşını”, “Gözəgörünməz adam”, “Aləmlərin savaşı”, “Qarışqalar səltənəti” və s.

**21 sentyabr 1911** – Rus-sovet aktyoru və müğənnisi Mark Bernes (1911-1969) anadan olub.

**22 sentyabr 1694** – İngilis yazıçısı Filip Dormer Stenxop Çesterfild (Philip Dormer Stanhope Chesterfield; 1694-1773) anadan olub.

**22 sentyabr 1875** – Rəssam, bəstəkar, professional Litva musiqisinin banisi Mikaloyus Çurlonis (Mikalojus Konstantinas Ciurlionis; 1875-1911) anadan olub.

**23 sentyabr 1901** – Çexiya yazıçısı və şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1984) laureatı Yaroslav Seyfert (Jaroslav Seifert; 1901-1986) anadan olub.

**23 sentyabr 1913** – Gürcü bəstəkarı, SSRİ Xalq artisti Aleksey Davidoviç Maçavariani (1913-1995) anadan olub. “Pələng dərisi geymiş pəhləvan”, “Otello” baletlərinin müəllifidir.

**23 sentyabr 1930** – Amerika cazmeni və pianoçusu Rey Çarlz (Raymond Charles Robinson; 1930-2004) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA 21-23 sentyabr

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 21 sentyabr | XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı C.Puççini - “La Bohema” (opera) | 19.00 |
| 22 sentyabr | XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı F.Əmirov - “Nəsimi” (balet) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 21 sentyabr | İ.Əfəndiyev - “Qarabağnamə” | 19.00 |
| 22 sentyabr | Elçin - “Cəhənnəm sakinləri” | 19.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 21 sentyabr | Ü.Hacıbəyli - “Ər və arvad” | 19.00 |
| 22 sentyabr | Ü.Hacıbəyli - “Arşın mal alan” | 19.00 |

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 21 sentyabr | V.Reznikova – “Durna balığının buyruğu ilə” | 12.00 |
| | R.Kuni – “Kişi, qadın, pəncərə… məşuq” | 19.00 |
| 22 sentyabr | V.Neverov – “Nağılı tap! – 5” | 12.00 |
| | P.Besson – “Tənhalıq komediyası” (premyera) | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 21 sentyabr | Rus xalq nağılı - “Maşa və Ayı” | 12.00, 14.00 |
| | Rus xalq nağılı - “Maşa və Ayı” (rus dilində) | 16.00, 18.00 |
| 22 sentyabr | Ş.Perro - “Qırmızıpapaq” | 12.00, 14.00 |
| | C.Rodari -“Çipollino” (rus dilində) | 16.00, 18.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 21 sentyabr | “Underground” - Teatrın aktyorları | 18.00 |
| 22 sentyabr | E.Rzayev - “Kişilər və qadınlar” | 18.00 |

**Şuşa Dövlət Musiqili Dram Teatrı (S.S.Axundov küç. 48)**

| | | |
|---|---|---|
| 21-22 sentyabr | L.Kərimov - “Əlibaba və qırx quldur” (Ərəb nağılı əsasında) | 12.00 |

**Heydər Əliyev Sarayı (Bülbül pr. 35)**

| | | |
|---|---|---|
| 22 sentyabr | XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor Rauf Abdullayev). Solist Xatiya Buniatişvili (piano) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 21 sentyabr | XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (dirijor Dmitri Xoxlov) | 19.00 |
| 23 sentyabr | Qara Qarayev adına Dövlət Kamera Orkestri (dirijor Fəxrəddin Kərimov). Solistlər - Murad Adıgözəlzadə (piano), Alyona Bayeva (violin, Rusiya) | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 22 sentyabr | XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı Fortepiano musiqisi axşamı – Aleksandr Hacıyev (İtaliya) | 17.00 |
| 23 sentyabr | Caz axşamı - Mişel Uoker | 20.00 |

№67 (1652)
20 sentyabr 2019
www.medeniyyet.az

# "Qız qalası. Qadın olmaq"

## Müasir incəsənət festivalı çərçivəsində sərgi açılıb

Xəbər verdiyimiz kimi, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi üzv ölkələrin səfirlikləri və yerli tərəfdaşlarla birlikdə 17-27 sentyabr tarixində Bakıda və ölkənin regionlarında "Qız qalası. Qadın olmaq" adlı müasir incəsənət festivalı keçirir.



Festival çərçivəsində sentyabrın 18-də paytaxtdakı Müasir İncəsənət Muzeyində müxtəlif ölkələrdən rəssamların iştirakı ilə sərgi açılıb.

Muzeyin direktoru Xəyyam Abdinov çıxış edərək diqqətə çatdırıb ki, bu il Müasir İncəsənət Muzeyinin 10 yaşı tamam olur. Ötən dövrə nəzər salan direktor muzeyin fəaliyyətini daim dəstəklədiyinə görə Birinci vitse-prezident Mehriban Əliyevaya və Heydər Əliyev Fonduna minnətdarlığını bildirib.

"Qız qalası. Qadın olmaq" festivalı barədə danışan X.Abdinov qadının cəmiyyətdə rolunun ictimaiyyətə çatdırılmasında və gender bərabərliyinin bərqərar olmasında belə tədbirlərin əhəmiyyətini vurğulayıb.

Layihənin kuratoru, Əməkdar rəssam Səbinə Şıxlinskaya bildirib ki, festivalda Avstriya, Niderland, Almaniya, Macarıstan və digər Avropa ölkələrindən sənət adamları, rəssamlar iştirak edirlər.

Sonra "Qız qalası. Qadın olmaq" sərgisinin açılışı olub. Qeyd edək ki, Avropa İttifaqının nümayəndəliyi tərəfindən maliyyələşdirilən bu festival "İmagine Avro Tolerantlıq" və "Fantaziya" Mədəni irs festivalından sonra Avropa dəyərlərinin və prinsiplərinin təbliği üzrə üçüncü böyük tədbirdir.

# Mahnı və rəqs ansamblımız Xivədən mükafatla qayıdıb

Özbəkistanın qədim Xivə şəhərində "Rəqsin sehri" beynəlxalq festivalı keçirilib. Festivala dünyanın 20 ölkəsindən və Özbəkistanın regionlarından rəqs ansamblları qatılıb.



Ölkəmizi festivalda Əməkdar mədəniyyət işçisi Elçin Abbasovun rəhbərliyi ilə Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı təmsil edib.

Festivalın açılış mərasimi qədim "İçan Kala" qoruq-muzeyinin "Ata darvaza" giriş qapısının qarşısındakı meydanda olub. İştirakçıları Özbəkistan Mədəniyyət nazirinin müavini Azadbek Nazarbekov və Xarəzm vilayətinin hakimi Farxod Ermanov salamlayıb, onlara uğurlar arzulayıblar.

Mərasimdə ölkəmizin Daşkənddəki səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi direktorunun müavini Polad Zeynalov da çıxış edib. O, Azərbaycanda mədəniyyət və incəsənətə dövlət qayğısından danışıb, bu sahədə Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd edib.

Festival çərçivəsində elmi-praktik konfrans, teatrlaşdırılmış şoular, xalq tətbiqi sənət nümunələrinin yarmarkası, Xarəzm yeməklərinin təqdimatı, bu sahələrdə ustad dərsləri və digər tədbirlər reallaşıb.

Azərbaycan rəqqasları festivalda üç konsert proqramı təqdim ediblər. Sonuncu gün keçirilən qala-konsertdə münsiflər heyətinin qərarı ilə Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı festivalın baş mükafatı – Qran-priyə layiq görülüb.

# Özbəkistanda Azərbaycan kinosu günləri keçiriləcək

Sentyabrın 23-dən 26-dək Özbəkistanın Daşkənd və Səmərqənd şəhərlərində Azərbaycan kinosu günləri keçiriləcək.




Azərbaycan Mədəniyyət Nazirliyi, "Özbəkkino" Milli Agentliyi, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən kino günlərinin rəsmi açılış mərasimi sentyabrın 23-də Əlişir Nəvai adına Kino Mərkəzində olacaq.

Kino günlərində rejissorlardan Mirbala Səlimlinin "Qırmızı bağ", İlqar Nəcəfin "Nar bağı", Şamil Əliyevin "Çölçü", Rafiq Əliyev və Cavid Təvəkkülün "Dərs" tammetrajlı bədii, Natalya Zavoznenkonun "Bakı əsrlərin aynasında", Adil Azayın "Xəlvətdə qalmış müdrik" və Valentina Qurkalenkonun "Hüseyn xan Naxçıvanski. Qayıdış" tammetrajlı sənədli filmləri nümayiş etdiriləcək.

Tədbirlə əlaqədar Azərbaycan kino sahəsinin təmsilçiləri Özbəkistana səfər edəcək. Azərbaycanlı mütəxəssislərin iştirakı ilə Özbəkistan Mədəniyyət və İncəsənət Universitetində bu sahənin aktual problemlərinə dair ustad dərslərinin keçirilməsi də nəzərdə tutulub.

Filmlərin bəziləri Daşkənd vilayətinin Almalıq rayonunda, Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində, paytaxtdakı Mədəniyyət və İncəsənət Universitetində də göstəriləcək.

# Oş şəhərində "Türk dünyasının mədəniyyət paytaxtı" abidəsi ucaldılacaq

Məlum olduğu kimi, Qırğızıstanın Oş şəhəri bu il TÜRKSOY-un layihəsi üzrə "Türk dünyasının mədəniyyət paytaxtı"dır.



Bununla bağlı Oş şəhərində "Türk dünyasının mədəniyyət paytaxtı 2019" abidəsi ucaldılacaq. Abidə postament üzərində dəyirmi formada olacaq və burada türkdilli dövlətlərin, o cümlədən Azərbaycanın bayraqları əks ediləcək.

Abidə Oş şəhərindəki "Barsbek Kaqan" abidəsinin yaxınlığında qurulacaq.

# Mətbəx nümunələrimiz xarici ölkə portallarında

Polşanın rondel.pl kulinariya portalında dünyanın ən ləzzətli vegetarian yeməkləri siyahısına Azərbaycan milli mətbəxindən pomidor çığırtması da salınıb.

"Bu fenomenal bir yeməkdir" cümləsi ilə başlayan yazıda xörəyin inqrediyentləri sadalanır. Əlavə olunur ki, bu yemək təkbaşına da doyumlu olmasına baxmayaraq, azərbaycanlılar onu əsasən səhər yeməyi kimi yanında pendir məhsulları ilə birgə yeməyi sevir.

Özbəkistanın tnews.uz portalında isə Qarabağ mətbəxi haqqında geniş məqalə verilib. Rus dilində dərc olunan "Qarabağ mətbəxinin xüsusiyyətləri və tarixi" sərlövhəli məqalədə Azərbaycanın bu regionunun mətbəx mədəniyyətindən ətraflı söz açılır.

Məqalədə Bərdə, Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl rayonlarının mətbəxi haqqında ayrılıqda bəhs edilir, bu rayonlarda bişirilən xörəklər, onların oxşar və fərqli xüsusiyyətləri izah olunur. Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin informasiya dəstəyi ilə hazırlanan yazıda X əsr ərəb səyyahları, məşhur türk səyyahı Evliya Çələbi, rus alimi İ.L.Seqal və başqalarının Qarabağın mətbəxi və məişəti haqqında fikirlərinə də yer ayrılıb.

# Bu istixanada kitablar "yetişir"

Rusiya paytaxtındakı Danilov bazarında Nekrasov adına istixana-kitabxana açılıb.



İstixananın içərisində yerləşən kitabxanada rus klassik yazıçılarının əsərlərindən media nəzəriyyəsinə qədər onlarla kitab var. Burada oxucu bileti almaq və kitab təhvil vermək də mümkündür. Bu maraqlı istixana-kitabxana haqqında məlumat Moskva hökumətinin portallarında da yerləşdirilib.

İstixanada yerləşən kitabxananın fondundan pulsuz olaraq kitabın çatdırılması üçün sifariş vermək olur. Kitabxananın baş direktoru Mariya Privalova deyib: "Şəhərdə yaşamağın yeni formatlarını axtarıb tapmaq bizim üçün mühümdür. Əgər hələ də kitabxananın lazımsız və tozlu kitabların anbarı olduğunu hesab edənlər varsa, bizim xoş atmosferi olan istixanamız bunun əksini sübut etməyə çalışır. Biz kitabxanada gözəl tərtibatı olan müasir nəşrləri toplamışıq və eyni zamanda buraya gələn şəhər sakinlərinə özləri ilə bir stəkan qəhvə gətirərək kitab oxumağa şərait yaradırıq".

# Meksika səfiri Tərcümə Mərkəzində

Meksikanın Azərbaycandakı səfiri Xuan Rodriqo Labardini Flores Azərbaycan Dövlət Tərcümə Mərkəzində olub. Görüş zamanı Azərbaycan-Meksika ədəbi əlaqələri, Azərbaycan ədəbiyyatının Meksikada, eləcə də Latın Amerikası ölkələrində tanıdılması və yayımı məsələləri müzakirə edilib.

Səfir "Azərbaycan ədəbiyyatı antologiyası"nın nəşri ilə bağlı Meksikanın Xarici İşlər Nazirliyinə müraciət edildiyini, əlaqədar nəşriyyat və qurumların artıq işə cəlb olunduğunu diqqətə çatdırıb.

Görüşdə tanınmış Meksika yazıçısı David Toskananın Azərbaycana gözlənilən səfəri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfir deyib: "Ədəbiyyatı sevirəm. Düşünürəm ki, ədəbiyyat və musiqi xalqların kimliyini, duyduğu hissləri daha yaxşı çatdırır. Rəsm əsərlərinə baxdıqda, orada yaşananların üst qatını duyuruq, yalnız müəyyən məqamları görürük, lakin ədəbiyyat daha dərin təəssüratlar yaradır. Azərbaycanda, paytaxt Bakıda, regionlarda mütəmadi olaraq tədbirlər, sərgilər keçiririk, meksikalı dostlarım hər zaman buradan xoş təəssüratlarla ayrılırlar".

# Azərbaycanlı yazar Moskvada müsabiqəyə qatılıb

Yazıçı-dramaturq Ülviyyə Heydərovanın "Uşaqlıq" monopyesi Moskvada keçirilən "XXI əsr – ilk hadisə" müasir dramaturgiya müsabiqəsinin "Tənha artist" nominasiyanın uzun siyahısına daxil edilib. Bu barədə müəllif özü məlumat verib.

Ü.Heydərova bu pyeslə 2018-ci ildə Almaniyanın Potsdam şəhərində Höte İnstitutu tərəfindən keçirilən "Next Stage Europe 2018" gənc dramaturqların festivalında ölkəmizi təmsil edib. Əsər festivalın yekun toplusunda yer alıb.

# Heydər Əliyev Sarayında "Nyu-York gecələri"...

## və Özbəkistanın muğam və estrada ulduzlarının konserti

Noyabrın 6-da Heydər Əliyev Sarayında "Nyu-York gecələri" adlı konsert proqramı keçiriləcək.

Teatr, musiqi və rəqslərin yer alacağı proqramda Nyu-Yorkun dünyaca məşhur musiqili şoularından "Dream Girls", "The Great Gatsby", "Chicago", "Burlesque", "Moulin Rouge" və başqalarından səhnəciklər canlı şəkildə göstəriləcək.

***

22-23 noyabr tarixində isə Heydər Əliyev Sarayında ilk dəfə Özbəkistanın muğam və estrada ulduzlarının konserti təşkil ediləcək. Gecədə Azərbaycanda keçirilmiş Beynəlxalq Muğam Festivalının qalibi, Əməkdar artist Yulduz Turdiyeva və estrada ulduzu, Əməkdar artist Uluqbek Raxmatullayevin iştirakı ilə "Özbəkistandan sevgilərlə" adlı proqram təqdim olunacaq.

Saraydan bildirilib ki, konsertin qonaqları qismində sənətçilərimiz – Xalq artisti Mənsum İbrahimov, əməkdar artistlər Fərqanə Qasımova, Ədalət Şükürov və Təyyar Bayramov, meyxanaçı Tərlan Novxanı və başqaları iştirak edəcəklər.

# "Əsrin müqaviləsi"nin 25 illiyi qeyd olunub

1994-cü ilin 20 sentyabrı yeni tariximizin əlamətdar günlərindən biridir. Həmin gün Azərbaycanın müstəqilliyinin, iqtisadi inkişafının uzun zaman təminatı olacaq tarixi bir sənədə imza atılıb.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) və dünyanın aparıcı neft kompaniyaları arasında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi haqqında ilk beynəlxalq müqavilənin imzalanması ilə ölkəmizin müstəqil neft strategiyasının əsası qoyulub. Ulu öndər Heydər Əliyevin banisi olduğu bu strategiya XXI əsr Azərbaycanının, yeni dövlət quruculuğunun möhkəm iqtisadi, geosiyasi sütunu oldu. Bu o dövr üçün dünyanın ən böyük neft müqaviləsi idi və beynəlxalq iqtisadi əhəmiyyətinə, miqyasına, strateji mahiyyətinə uyğun bir adla tarixə həkk olundu – "Əsrin müqaviləsi".



Sentyabrın 18-də Azərbaycan Mətbuat Şurasının və "SOCAR-AQŞ" MMC-nin "Əsrin müqaviləsi"nin 25 illiyi ilə bağlı keçirdikləri yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Əvvəlcə "SOCAR-AQŞ" MMC-nin fəaliyyətinə dair videoçarx nümayiş olunub. Tədbirdə çıxış edən "SOCAR-AQŞ" MMC-nin baş direktoru Ramin İsayev şirkətin gördüyü işlərdən danışıb. Bildirib ki, qazma tarixində bir sıra uğurlara və yeniliklərə imza atan şirkətin missiyalarından biri Azərbaycanın hüdudlarından kənarda da ölkəmizi təmsil etməkdir.

Şirkətin mətbuat xidmətinin rəhbəri Sənubər Nəzərova yazı müsabiqəsi barədə ətraflı məlumat verib.

Mətbuat Şurasının İdarə heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyəti barədə danışıb, bu günün təkcə neftçilər üçün deyil, bütün vətəndaşlarımız üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Sonra qaliblər mükafatlandırılıb. Mükafatçılar arasında qəzetimizin əməkdaşı Gülcahan Mirməmməd də var.

Daha sonra tələbə təqaüdləri təqdim edilib. Tədbir bədii hissə ilə davam edib.

# Dərbənddə Nizami Gəncəviyə yeni abidə qoyulacaq

Rusiyanın Dağıstan Respublikasının Dərbənd şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin yeni abidəsi ucaldılacaq.

Abidənin Nizami Gəncəvinin adını daşıyan parkda 2020-ci ildə ucaldılması nəzərdə tutulub. Bu vaxtadək park bütövlükdə yenidən qurulacaq.

Dərbənd Şəhər Memarlıq və Şəhərsalma İdarəsinin rəisi İsa Maqomedov jurnalistlərə bildirib ki, bürünc abidənin hazırlanmasına artıq bu il başlanacaq.

Bir neçə ay əvvəl Dağıstanda Nizami Gəncəvinin abidəsinin hazırlanması üçün müsabiqə elan edilmişdi. Mahaçqaladan olan heykəltəraş Məhəmmədəli Əliyevin eskizləri müsabiqənin münsiflər heyəti tərəfindən bəyənilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır
**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279
**İndeks:** 0187
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4965
**Sifariş:** 3153
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.